RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 6 (9751) 12 yanvar 2025-ci il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ümumdünya İqtisadi Forumu Azərbaycanı lider elan etdi

### Ölkəmiz 2024-cü il Enerji keçidi indeksi üzrə MDB ölkələri arasında öndədir

Azərbaycan Ümumdünya İqtisadi Forumunun (World Economic Forum - WEF) hazırladığı 2024-cü ilin energetik keçid İndeksinə (Energy Transition Index - ETI) görə, Müstəqil Dövlətlər Birliyindən (MDB) olan bütün dövlətləri üstələyib.

Azərbaycan 120 ölkə arasında ümumilikdə 60.3 bal toplamaqla 38-ci yerdə qərarlaşıb və bununla da bütün MDB ölkələrini və qonşu dövlətləri geridə qoyub. Qonşuları arasında Azərbaycan Ermənistandan (79-cu yer, 52.7 bal), Gürcüstandan (56-cı yer, 56.3 bal), Türkiyədən (59-cu yer, 55.8 bal) və İrandan (102-ci yer, 49.0 bal) üstün olub. Azərbaycan eyni zamanda Mərkəzi Asiyadan Qazaxıstan (98-ci yer, 50.1 bal), Qırğızıstan (80-ci yer, 52.7 bal) və Tacikistan (71-ci yer, 53.6 bal) kimi ölkələri geridə qoyaraq, bir daha Xəzər dənizi regionunda lider olduğunu təsdiqləyib.

→ 2

## *İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı:* "Azərbaycan "yaşıl enerji" və Dayanıqlı İnkişaf Məqsədləri sahəsində irəliləyir"

Son iki il ərzində İƏİT Azərbaycan İnvestisiya Holdinqinin və onun dövlət müəssisələrinin korporativ idarəçiliyinə baxış keçirib. Bu icmal qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq dövlət sektorunda islahatların aparılmasında Azərbaycan hakimiyyətinə kömək etmək üçün tövsiyələr verdi. Azərbaycan həmçinin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin, İƏİT-in Rüşvətxorluq üzrə İşçi Qrupunun regional yardım proqramının fəal iştirakçısıdır. 2024-cü ildə dərc edilmiş İstanbul Korrupsiyaya Qarşı Mübarizə Fəaliyyət Planı çərçivəsində monitorinqin beşinci raundunda Azərbaycanın doqquz fəaliyyət sahəsi üzrə antikorrupsiya təcrübəsi və islahatları qiymətləndirilib. Hesabatda ölkədə korrupsiyaya qarşı mübarizə institutlarının qurulması, korrupsiya hallarının aşkarlanması və mühakiməsi istiqamətində görülən işlər təhlil olunub və təkmilləşdirilməsi lazım olan istiqamətlər müəyyən edilib.

→ 2



## İlham Əliyevin "yaşıl hədəf"ləri

Yola saldığımız 2024-cü ildə Azərbaycan enerji keçidi sahəsində də mühüm addımlar atdı. Bu, ölkəmizin öz "yaşıl enerji" hədəflərinə çatması istiqamətində yeni bir mərhələ oldu. Prezident İlham Əliyev ötən ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdi. Bu müdrik qərar həm zamanın problemi, günün tələbi ilə üst-üstə düşür, həm də ölkəmizin BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etdiyi üçün xüsusi əhəmiyyət daşıyırdı.

Öz enerji təhlükəsizliyini tam şəkildə özü təmin edən ölkələr dünyada tək-təkdir. Azərbaycan artıq öz enerji təhlükəsizliyini təmin edir, üstəlik, regionun, həmçinin Avropanın enerji təhlükəsizliyinə dəstək verir. Bununla yanaşı ölkəmiz enerji keçidi sahəsində də irəlidədir.

Məlum olduğu kimi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır.

Azərbaycanın "yaşıl gündəliy"i artıq hamıya bəllidir. Ölkəmiz baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

→ 3

## Ş.S.Bağırovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında gömrük işinin inkişaf etdirilməsində xidmətlərinə və gömrük orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Şahin Soltan oğlu Bağırov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 yanvar 2025-ci il*

## Məmnun vətəndaş - güvənli dövlət

### Prezident İlham ƏLİYEV: "Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar"



Prezident İlham Əliyevin sərəncamı ilə milyonlarla insanın sosial təminatında böyük irəliləyişlərə səbəb olan növbəti islahatlar paketi həyata keçirilməyə başlayıb. Ötən illər ərzində həyata keçirilən sosial islahatlar paketi çərçivəsində milyonlarla insanın sosial təminatında böyük irəliləyişlər əldə edilmişdir. Minimum pensiya 2,5, orta aylıq pensiya 2,4, müavinət və təqaüd ödənişləri 5 dəfəyə qədər artırılmışdır. Əmək müqavilələrinin sayının son 6 ildə 600 mindən çox (50 faizədək) artması işçi hüquqlarının qorunması, formal məşğulluğun genişləndirilməsi və əmək bazarında şəffaflığın artırılması baxımından mühüm irəliləyişdir. Bu rəqəmlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin Azərbaycanı rifah cəmiyyətinə çevirmək istiqamətində uğurlarını nümayiş etdirir.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayan Prezident İlham Əliyev demişdir ki, bu il yanvarın 1-dən minimum əməkhaqqı 55 manat artırılaraq 400 manata çatdırılıb.

→ 2

## Qərbi Azərbaycana qayıdış missiyası

Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti həyata keçirən erməni millətçiləri XIX-XX əsrlər ərzində mərhələli şəkildə soydaşlarımızı indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovublar.

1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz - İrəvan Ermənistana bağışlanıb. 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra digər torpaqları sovet hökumətinin xain siyasəti nəticəsində Ermənistana birləşdirilib, 1948-1953-cü illərdə Qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar. 1987-ci ildən erməni millətçiləri sovet hökumətinin dəstəyi ilə azərbaycanlıları tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediblər.

Ermənilər Qərbi Azərbaycanda maddi-mədəni irsimizə qarşı soyqırımı siyasəti həyata keçiriblər, toponimlərimizi dəyişdirib uydurma adlar qoyublar, türk dilində mövcud olan yer adlarını ermənicəyə çeviriblər.

Qondarma Ermənistan dövlətinin faşist ideyalı daha bir prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də - Ağdamın işğalı günündə "Yerkrapa" könüllülər birliyinin toplantısında etdiyi çıxışın videoyazısı bu günlərdə üzə çıxıb.

→ 6





## Ədalət mühakiməsi başlayır

Azərbaycan dövləti yalnız torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası ilə kifayətlənmədi. Antiterror əməliyyatlarının nəticəsi olaraq həm də onilliklər boyu torpaqlarımızda separatçılıqla məşğul olanlar, milli kimliyimizə düşmən kəsilərək xalqımıza qarşı kütləvi qətliamlar, soyqırımları, müharibə cinayətləri törədən erməni cəlladları da həbs edildilər, əlləri qandallanaraq Bakıya gətirildilər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun ötən ay yaydığı məlumata əsasən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən respublikamıza qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi məhkəməyə göndərilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü ilədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikamızın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib.

→ 6

## Torpağı və orqanizmi zəhərləyən torbalar

Market şəbəkələrində aparılan monitorinq nəticələrinə görə, qərarın qəbulundan ötən müddət ərzində plastik torbalardan istifadə 40-60 faiz, bəzi marketlərdə 70 faiz azalıb. Həmin plastik torba tullantılarının da bu qədər azalması deməkdir.

Plastik torbaların ödənişli olması bu istiqamətdə atılan addımlardan yalnız biridir. Bununla yanaşı, alternativ materialdan olan qablaşdırma istehsalçıları üçün də güzəştli şərtlər qəbul edilir. Belə ki, bu ilin yanvarın 1-dən kvars kağız xammalı gömrük rüsumundan azad edilib ki, bu da kağız torba istehsalçıları üçün əlverişli imkan yaradır. Eyni zamanda bioplastik istehsalı sahəsinə maraq göstərən sahibkarlar da nazirliyə müraciət edərək, bazarın qiymətləndirilməsini aparırlar. Hazırda plastik torbaların satış qiymətinin öz dəyərinə uyğunlaşdırılması ilə bağlı təkliflər aidiyyəti qurumlara və bu sahədə fəaliyyət göstərən sahibkarlara təqdim olunub. Digər ölkələrin təcrübəsi göstərir ki, plastik torbalar pullu olduqdan və qiyməti artırıldıqdan sonra bu torbalardan istifadə 60-70 faiz, bəzi hallarda 90 faiz azalıb. Ölkəmizdə də bu istiqamətdə ardıcıl addımların atılması nəzərdə tutulur.

→ 7



# Ümumdünya İqtisadi Forumu Azərbaycanı lider elan etdi

## Ölkəmiz 2024-cü il Enerji keçidi indeksi üzrə MDB ölkələri arasında öndədir

**Azərbaycan Ümumdünya İqtisadi Forumunun (World Economic Forum - WEF) hazırladığı 2024-cü ilin energetik keçid İndeksinə (Energy Transition Index - ETI) görə, Müstəqil Dövlətlər Birliyindən (MDB) olan bütün dövlətləri üstələyib.**



Trend xəbər verir ki, Azərbaycan 120 ölkə arasında ümumilikdə 60.3 bal toplamaqla 38-ci yerdə qərarlaşıb və bununla da bütün MDB ölkələrini və qonşu dövlətləri geridə qoyub. Qonşuları arasında Azərbaycan Ermənistandan (79-cu yer, 52.7 bal), Gürcüstandan (56-cı yer, 56.3 bal), Türkiyədən (59-cu yer, 55.8 bal) və İrandan (102-ci yer, 49.0 bal) üstün olub.

Azərbaycan eyni zamanda Mərkəzi Asiyadan Qazaxıstan (98-ci yer, 50.1 bal), Qırğızıstan (80-ci yer, 52.7 bal) və Tacikistan (71-ci yer, 53.6 bal) kimi ölkələri geridə qoyaraq, bir daha Xəzər dənizi regionunda lider olduğunu təsdiqləyib.

Qeyd edək ki, Özbəkistan və Türkmənistan reytinqə daxil edilməyib.

WEF göstəricilərinə əsasən, dünya üzrə orta göstərici 56.5 bal olub ki, bu da Azərbaycanın reytinqindən kifayət qədər aşağıdır.

Reytinqin liderləri isə Şimali Avropa ölkələri olub: İsveçrə 78.4 bal göstəricisi ilə reytinq cədvəlinə başçılıq edir. İkinci yerdə 75.2 balla Danimarka qərarlaşıb. Üçüncü yerdə isə 74.6 balla Finlandiya mövqe tutub.

Onu da qeyd edək ki, 2024-cü il üzrə enerji keçid indeksi ölkələrin tərəqqisini müqayisə etməyə və izləməyə imkan verən vahid metodologiya əsasında onların enerji sistemlərinin kompleks şəkildə qiymətləndirilməsini təmin edir.

ETI ölkələri başlıca olaraq iki əsas meyar əsasında qiymətləndirir: Sistemin effektivliyi və keçidə hazırlıq səviyyəsi.

Sistemin effektivliyi meyarına enerji əlçatanlığı, təhlükəsizlik və dayanıqlılıq kimi aspektlər daxildir. Keçidə hazırlıq meyarı isə bir sıra faktorları, o cümlədən nizamlanma, siyasi bağlılıq, maliyyələşmə, investisiyalar, innovasiyalar, infrastruktur və təhsil kimi faktorları təhlil edir. Ölkənin yekun balı bu iki meyar üzrə nəticələrin məcmusu əsasında (müvafiq olaraq 60 və 40 faiz çəki ilə) müəyyənləşir.

WEF məlumatlarına görə, ölkələrin böyük əksəriyyəti enerji keçidində irəliləyiş nümayiş etdirir. Şimali Avropa dövlətləri reytinqə başçılıq edirlər, Çin, Braziliya kimi ölkələr isə əvvəlki illərlə müqayisədə öz mövqelərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıblar.

# Məmnun vətəndaş - güvənli dövlət

## Prezident İlham ƏLİYEV: "Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar"

**İqtisadi cəhətdən ilbəil güclənən Azərbaycanda əhalinin sosial müdafiəsi və rifahı da yüksəlir. Sosial müdafiə və rifahın yüksəlməsi isə cəmiyyətin inkişafını stimullaşdıran əsas şərtdir. Bu, dünyanın hər yerində belədir.**

Ölkəmizdə də həyata keçirilən sosial siyasətin mərkəzində vətəndaşın rifahının təminatı dayanır. "Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır" - dövlət başçısının bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, o cümlədən son illər bir-birinin ardınca reallaşdırılan və hər biri neçə-neçə vətəndaşın rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır.

Azərbaycanın təməl sütunlarını təşkil edən sahələrdən biri də, əlbəttə ki, düzgün aparılan sosial-iqtisadi inkişafdır. Dövlətin sosial siyasətinin mərkəzində isə, qeyd etdiyimiz kimi, Azərbaycan vətəndaşının sosial güvənliyinin, əhalinin rifahının gücləndirilməsi dayanır. O üzdən bu gün Azərbaycan sosial islahatlar baxımından bir çox ölkəyə nümunədir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə milyonlarla insanın sosial təminatında böyük irəliləyişlərə səbəb olan növbəti islahatlar paketi həyata keçirilməyə başlayıb. Ötən illər ərzində həyata keçirilən sosial islahatlar paketi çərçivəsində milyonlarla insanın sosial təminatında böyük irəliləyişlər əldə edilmişdir. Minimum pensiya 2,5, orta aylıq pensiya 2,4, müavinət və təqaüd ödənişləri 5 dəfəyə qədər artırılmışdır. Əmək müqavilələrinin sayının son 6 ildə 600 mindən çox (50 faizədək) artması işçi hüquqlarının qorunması, formal məşğulluğun genişləndirilməsi və əmək bazarında şəffaflığın artırılması baxımından mühüm irəliləyişdir. Bu rəqəmlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin Azərbaycanı rifah cəmiyyətinə çevirmək istiqamətində uğurlarını nümayiş etdirir.

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayan Prezident İlham Əliyev bir neçə gün əvvəl yerli televiziya kanallarına verdiyi müsahibəsində demişdir ki, bu il yanvarın 1-dən minimum əməkhaqqı 55 manat artırılaraq 400 manata çatdırılıb. Minimum pensiya isə 40 manat artımla 320 manat olub. Bunlar orta hesabla 14-15 faiz artım deməkdir. Qarşısında Qarabağın bərpası kimi böyük işlər olan bir ölkədə sosial sahəyə diqqət yetirmək, əlbəttə ki, dövlətin sosial siyasətinin mahiyyətini göstərir. Çünki: "...Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar. Əgər biz bu artımı inflyasiyanın dərəcəsi ilə müqayisə etsək, - hansı ki, keçən il 2 faizdən bir qədər çox idi, - yəni bu artım məhz az müdafiə olunan təbəqə üçün dövlət tərəfindən növbəti yardımdır. Hər şey cəmiyyətdə də, siyasətdə də, ailədə də ədalətli olmalıdır və sosial ədalət prinsipləri həmişə bizim üçün vacib olub. İmkan yarandıqca, biz ilk növbədə, bu sahəni də, necə deyərlər, diqqətdə saxlamışıq. Bundan sonra da sosial və iqtisadi inkişaf yanbayan gedəcək. İqtisadi imkanlar artdıqca



biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik", - deyə Prezident müsahibəsində bildirmişdir.

Dövlət başçısı bu müsahibəsində yeni islahat paketinin əhəmiyyətini vurğulayaraq Azərbaycanın həm sosial sahədə, həm də iqtisadi inkişafda tarazlı yanaşma sərgilədiyini də demişdir. "Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar" - deyən Prezident son illər ərzində həyata keçirilən sosial paketlər çərçivəsində 7 milyard manatdan çox vəsaitin xərcləndiyini vurğulamışdır. Bununla yanaşı, iqtisadi imkanların artması fonunda sosial məsələlərin - minimum əməkhaqqı, pensiya və sosial müavinətlərin artırılması kimi məsələlərin həllinə hər zaman diqqət yetiriləcəyini bəyan etmişdir. Bu yanaşma isə sosial siyasətin dövlət idarəetməsində əsas prioritetlərdən olduğunu bir daha təsdiqləyir.

Əhalinin sosial təminatının gücləndirilməsinə yönəlmiş beşinci islahat paketi pensiyaların indeksləşdirilərək artırılması da daxil olmaqla ümumilikdə 3 milyon insanı əhatə edir. Həmin şəxslərə yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün əlavə olaraq 1,4 milyard manat ayrılıb. Bu islahat paketi ölkənin sosial sahədəki ən mühüm addımlarından biri olmaqla geniş əhali təbəqəsinin maddi təminatını yaxşılaşdırmağa yönəlib. Məlumat üçün bildirək ki, 2018-2025-ci illər ərzində sosial ödənişlərin artırılması məqsədilə ayrılan əlavə illik vəsaitin həcmi 7,6 milyard manata çatıb.

Azərbaycanın geniş məzmunlu sosial siyasətində əhalinin, xüsusən aztəminatlı təbəqənin gəlirlərinin artırılması xətti xüsusi yer tutur. Yeni sosial paket çərçivəsində əməkhaqlarının və pensiyaların artırılması məhz buna xidmət edir. Qeyd edək ki, 2023-cü ildə pensiyaların artımı 14,7, 2024-cü ildə isə 11,2 faiz olmuşdur. Bu da həmin təbəqədən olan insanların gündəlik həyatına müsbət təsir etmişdir. Burada mühüm bir yeniliyi vurğulayaq: 2023-cü ilin əvvəlindən pensiya artımı sahəsində vahid indeksasiya üsuluna keçilib. Bu üsul hər ilin əvvəlində vahid yanaşma ilə bütün kateqoriyalardan olan pensiyaçıların təqaüdlərinin indeksləşdirilərək artırılmasına imkan verir. Bu yanaşma pensiyaçıların haqlarının qorunması və daha ədalətli şəkildə artımın həyata keçirilməsi üçün çox gərəkli bir addımdır.

Həyata keçirilən sosialyönümlü islahatlar insanların təkcə maddi rifahına deyil, həm də mənəvi-psixoloji durumuna müsbət təsir göstərir. İlk növbədə əhalinin öz dövlətinə inamını artırır ki, bu da dövlət-vətəndaş münasibətində önəmli şərtdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# İƏİT: "Azərbaycan "yaşıl enerji" və Dayanıqlı İnkişaf Məqsədləri sahəsində irəliləyir"

**İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) 1948-ci ildə Marşal Planı çərçivəsində Avropanın müharibədən sonrakı iqtisadi yenidənqurma layihələrini həyata keçirmək üçün yaradılıb. Bu illər ərzində Azərbaycan İƏİT ilə tərəfdaşlığını ardıcıl olaraq genişləndirir: xüsusilə, çoxsaylı birgə layihələr həyata keçirilir, ölkəmizə məsləhət və ekspert dəstəyi göstərilir.**

Bu gün Azərbaycan ilə İƏİT arasında əməkdaşlığın gündəliyinə qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi və rəqəmsallaşdırılması, KOB-ların inkişafında qabaqcıl təcrübənin tətbiqi, vergi sahəsində şəffaflığın və hesabatlılığın artırılması, Avrasiya Rəqabətlilik Proqramının, eləcə də digər innovativ layihələrin birgə həyata keçirilməsi kimi aktual məsələlər daxildir.

Rəsmi Bakı ilə İƏİT arasında əməkdaşlığın əsas istiqamətləri ilə bağlı təşkilatın Qlobal Məsələlər və Əməkdaşlıq Direktorluğunun Avrasiya şöbəsinin rəhbəri Uilyam Tompsonla AZƏRTAC-ın müsahibəsini təqdim edirik.

*- Hazırda Azərbaycan ilə İƏİT arasında əməkdaşlığın əsas istiqamətləri hansılardır?*

- Azərbaycanın İƏİT ilə əlaqələri idarəetmə, korrupsiya ilə mübarizə, iqtisadiyyatın şaxələndirilməsi, KOB və sahibkarlıq siyasəti, təhsil və bacarıqlar, rəqəmsal transformasiya, vergilər, enerji siyasəti və yaşıl keçid kimi geniş spektri əhatə etməklə son illərdə əhəmiyyətli dərəcədə genişlənib. Ölkə Şərqi Avropa və Mərkəzi Asiya üçün Korrupsiyaya Qarşı Mübarizə Şəbəkəsi, İƏİT-in Avrasiya Rəqabətlilik Proqramı, Rəhbərlik və İdarəetmədə Təkmilləşməyə Dəstək (SIGMA) proqramı daxil olmaqla, müxtəlif İƏİT proqramları, şəbəkələri və layihələrində fəal iştirak edir.

Bundan əlavə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən yaradılmış vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumun və İnkişafa Yardım Komitəsinin (DAC) üzvüdür. Ölkə eyni zamanda Baza Eroziyası və Mənfəətin dəyişdirilməsi (BEPS) layihəsinin assosiativ üzvüdür və Aİ tərəfindən maliyyələşdirilən "EU4Business", "EU4Energy", "EU4Environment" və "EU4Integrity" kimi regional İƏİT layihələrindən faydalanır.

*- İƏİT ilə əməkdaşlığın Azərbaycanın iqtisadi inkişafına hansı təsiri var?*

- Azərbaycanın İƏİT ilə əməkdaşlığı, ilk növbədə, sahibkarlıq, investisiya və innovasiyalar üçün mühitin daha da yaxşılaşdırılması yolu ilə ölkəyə iqtisadi fəaliyyətin, o cümlədən istehsal, məşğulluq və ixracın şaxələndirilməsinə kömək etməyə yönəlib. İqtisadiyyatın şaxələndirilməsi Azərbaycana mədən yanacaqlarından uzaqlaşan aşağı karbonlu keçidin öhdəsindən gəlməyə kömək edəcək, həmçinin çox kapital tutumlu olan neft-qaz sektorundan kənarda daha çox iş yeri yaradacaq. Diversifikasiya həm də Azərbaycana əmtəə qiymətləri şoklarına məruz qalmasını azaltmağa kömək edə bilər.

*- İƏİT-in hansı konkret təşəbbüsləri dövlət idarəçiliyinin təkmilləşdirilməsində Azərbaycana kömək edib?*



- Azərbaycan İƏİT və Avropa İttifaqının birgə təşəbbüsü olan Dövlət İdarəçiliyinin və İdarəetmənin Təkmilləşdirilməsinə Dəstək Proqramında (SIGMA) iştirak edir. Proqramın əsas məqsədi dövlət idarəçiliyinin təkmilləşdirilməsi üçün əsasların möhkəmləndirilməsi, dövlət sektorunun potensialının artırılması yolu ilə sosial-iqtisadi inkişafın dəstəklənməsi, dövlət idarəçiliyi sahəsində islahatların həyata keçirilməsinin təkmilləşdirilməsi, ardıcıllıq və büdcə tərtibidir. Biz 1992-ci ildən bəri tərəfdaşlarımızla onların dövlət idarəetmə sistemlərini və dövlət idarəetmə potensialını gücləndirmək üçün işləyirik.

*- İƏİT vergi sistemini təkmilləşdirmək üçün Azərbaycana hansı tövsiyələri verib?*

- Vergitutma ilə bağlı Azərbaycan 2024-cü ilin sentyabrında BEPS Konvensiyasına ratifikasiya sənədini təqdim edərək, vergi müqavilələrindən sui-istifadənin, vergi bazasının aşınmasının və transmilli müəssisələr tərəfindən mənfəətin dəyişdirilməsinin qarşısının alınmasına dair güclü öhdəliyini vurğulayıb. Bu ilin yanvarından BEPS Konvensiyası Azərbaycanda qüvvəyə minəcək. Azərbaycan həmçinin vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumun (GFTEOI) üzvüdür. Bu yaxınlarda Azərbaycanda sorğu əsasında məlumat mübadiləsi (EOIR) standartının praktik tətbiqini təhlil edən ekspert rəyinin ikinci raundu tamamlandı. Azərbaycan və İƏİT həmçinin karbon qiymətlərinin müəyyən edilməsi və "Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi (CBAM)" ödənişlərinə necə təsir göstərə biləcəyi kimi mövzular üzərində işləməyə davam edə bilər.

*- İƏİT ətraf mühitin mühafizəsi və davamlı inkişaf sahəsində Azərbaycana necə kömək edir?*

- Azərbaycan Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyada keçid iqtisadiyyatlarını dəstəkləyən Ətraf mühit və artım üçün tərəfdaşlıq Proqramında (GREEN) fəal rol oynayır. Bu təşəbbüs davamlı inkişafı təşviq etmək, insan kapitalını inkişaf etdirmək, yaşıl sərmayəni, dialoqu təşviq etmək və ən yaxşı təcrübələri paylaşmaqla yanaşı ekoloji göstəriciləri yaxşılaşdırmaq məqsədi daşıyır. Azərbaycan həmçinin "EU4Energy" və "EU4Environment" daxil olmaqla Aİ tərəfindən maliyyələşdirilən regional layihələrdə iştirak edir. Bakı Beynəlxalq Enerji Agentliyi (IEA) ilə tərəfdaşlıqda həyata keçirilən "EU4Energy" dayanıqlı enerji siyasətlərinin işlənib hazırlanmasında, həyata keçirilməsində və enerji sektorunda regional əməkdaşlığın təşviqində mərkəz ölkələri dəstəkləyir. Eyni zamanda "EU4Environment" siyasət və qanunvericilik dəyişiklikləri daha yaşıl planlaşdırma və investisiyalar, innovativ texnologiyalar və yaşıl iş yerləri vasitəsilə ekoloji rifahı yaxşılaşdırmaqla Şərq Tərəfdaşlığı ölkələrində təbii kapitalın qorunmasına kömək edir. O, həmçinin ətraf mühitin yaxşı idarə olunmasını, qorunan ərazilərin və meşələrin təkmilləşdirilmiş idarə edilməsini və davamlı ticarət təcrübələrini təşviq edir.

*- Azərbaycanda korporativ idarəetmə və biznesin şəffaflığı sahəsində İƏİT-in hansı proqramları həyata keçirilib?*

- Son iki il ərzində İƏİT Azərbaycan İnvestisiya Holdinqinin və onun dövlət müəssisələrinin korporativ idarəçiliyinə baxış keçirib. Bu icmal qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq dövlət sektorunda islahatların aparılmasında Azərbaycan hakimiyyətinə kömək etmək üçün tövsiyələr verdi. Azərbaycan həmçinin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin, İƏİT-in Rüşvətxorluq üzrə İşçi Qrupunun regional yardım proqramının fəal iştirakçısıdır. 2024-cü ildə dərc edilmiş İstanbul Korrupsiyaya Qarşı Mübarizə Fəaliyyət Planı çərçivəsində monitorinqin beşinci raundunda Azərbaycanın doqquz fəaliyyət sahəsi üzrə antikorrupsiya təcrübəsi və islahatları qiymətləndirilib. Hesabatda ölkədə korrupsiyaya qarşı mübarizə institutlarının qurulması, korrupsiya hallarının aşkarlanması və mühakiməsi istiqamətində görülən işlər təhlil olunub və təkmilləşdirilməsi lazım olan istiqamətlər müəyyən edilib. Sonrakı hesabatda Azərbaycanın bu tövsiyələrin həyata keçirilməsindəki irəliləyişləri qiymətləndiriləcək.

Bundan əlavə, 2024-cü ildə İƏİT sorğu əsasında Azərbaycanın şəffaflıq və məlumat mübadiləsi standartlarına uyğunluğunu qiymətləndirib. Bu qiymətləndirmə həm ölkənin normativ-hüquqi bazasını, həm də bu standartların praktiki tətbiqini araşdırdı.

*- İƏİT innovativ texnologiyaların və rəqəmsal iqtisadiyyatın inkişafında Azərbaycana necə dəstək verir?*

- İƏİT KOB-ların rəqəmsallaşdırılmasının gücləndirilməsinə yönəlmiş təşəbbüslər vasitəsilə Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafına dəstək verir. 2021-ci ildə Azərbaycan müəssisələrinin rəqəmsallaşdırılmasını təşviq etmək üçün İƏİT-in Avrasiya Rəqabətliliyinə dair "dəyirmi masa"sında nəzərdən keçirilib. Bu araşdırmanın bir hissəsi kimi İƏİT Azərbaycanda KOB-ların rəqəmsallaşdırılmasını təşviq etmək üçün tövsiyələr təklif edib. İƏİT siyasət koordinasiyasını təkmilləşdirmək, KOB-ların rəqəmsal infrastruktura çıxışını genişləndirmək, tənzimləmə mühitini yaxşılaşdırmaq, rəqəmsal bacarıqları artırmaq və KOB-ları rəqəmsal həllərin qəbulunu təşviq etmək üçün məqsədyönlü maliyyə və qeyri-maliyyə proqramları müəyyən edib.

*- İƏİT Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında irəliləyişini necə qiymətləndirir?*

- BMT-nin son qiymətləndirmələrində Azərbaycanın mövqeyinin yaxşılaşmasını müşahidə edirik ki, bu da ölkədə DİM-in təxminən 40 faizinə nail olduğunu göstərir. Güclü artım aclıq, yoxsulluq və məşğulluq hədəflərində irəliləyişi dəstəklədi. Biz həmçinin "yaşıl enerji", iqlim fəaliyyəti və davamlı inkişaf məqsədlərində irəliləyişləri qeyd edirik.

*- Qlobal iqtisadi inteqrasiya kontekstində İƏİT ilə əməkdaşlığın dərinləşdirilməsinin Azərbaycan üçün əhəmiyyəti nədən ibarətdir?*

- Bir sıra siyasət sahələrində İƏİT ilə əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın siyasətçilərinin İƏİT üzvləri və digər qeyri-üzv iqtisadiyyatlarla təcrübə mübadiləsindən faydalana bilməsini təmin edir. Bundan əlavə, ölkə öz islahatlarını, inkişaf tərəqqisini nümayiş etdirə bilər.

*- Dayanıqlılığın daha yüksək səviyyəsinə nail olmaq üçün Azərbaycan İƏİT tövsiyələrini nəzərə alaraq iqtisadiyyatın hansı sahələrini inkişaf etdirməlidir?*

- İƏİT nöqteyi-nəzərindən dayanıqlılıq məsələləri əksər halda iqtisadiyyatın konkret sahələrinin inkişafına aid deyil. Aşağı karbonlu iqtisadiyyata keçid iqtisadi və sosial həyatın bütün sahələrini əhatə edən kəsişən məsələdir. Təbii ki, bəzi istisnalar var: uzunmüddətli perspektivdə ölkə karbohidrogenlərdən asılılığını azaltmalı və bərpaolunan enerji mənbələrini inkişaf etdirməlidir. Biz Azərbaycanın ekoloji problemlərin həlli və 2015-ci il Paris Sazişində müəyyən edilmiş istixana qazları emissiyasının azaldılması hədəflərinə nail olmaq səylərini, xüsusilə də yeni bərpaolunan enerji layihələrinə son investisiyaları və suvarma üsullarının modernləşdirilməsi istiqamətində atılan addımları qeyd edirik. Bununla belə, həqiqi davamlılıq iqtisadiyyatın bütün sektorlarında yeni bacarıqların və yeni istehsal modellərinin inkişafını tələb edəcək. Bu, bütün iqtisadiyyatın, bütün cəmiyyətin vəzifəsidir.

# Konstitusiya və Suverenlik İli 2025



# İlham Əliyevin "yaşıl hədəf"ləri

## Bu hədəflər yaxın və uzaq perspektivlərə hesablanıb

**Yola saldığımız 2024-cü ildə Azərbaycan enerji keçidi sahəsində də mühüm addımlar atdı. Bu, ölkəmizin öz "yaşıl enerji" hədəflərinə çatması istiqamətində yeni bir mərhələ oldu. Prezident İlham Əliyev ötən ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etmişdi.**

Bu müdrik qərar həm zamanın problemi, günün tələbi ilə üst-üstə düşür, həm də ölkəmizin BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etdiyi üçün xüsusi əhəmiyyət daşıyırdı.

Öz enerji təhlükəsizliyini tam şəkildə özü təmin edən ölkələr dünyada tək-təkdir. Azərbaycan artıq öz enerji təhlükəsizliyini təmin edir, üstəlik, regionun, həmçinin Avropanın enerji təhlükəsizliyinə dəstək verir. Bununla yanaşı ölkəmiz enerji keçidi sahəsində də irəlidədir.

Məlum olduğu kimi, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır.

Azərbaycanın "yaşıl gündəliy"i artıq hamıya bəllidir. Ölkəmiz baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmiz elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Keçən il noyabrın 12-də COP29-un Liderlər Sammitinin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev bir daha xatırlatmışdır ki, bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə 157 giqavat təşkil edir. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq Günəş-Elektrik Stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda təməli qoyuldu.

2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Təqdirəlayiq haldır ki, bərpaolunan enerji layihələri getdikcə rayonlarımızı da əhatə edir. 2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz və 12-ci Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" sərgilərinin açılışı zamanı Prezident İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin sənaye və yüksək texnologiyalar naziri Sultan Əhməd əl-Cabir Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və Abşeron-"Qaradağ" Külək-Elektrik Stansiyasının təməlini qoydular.

Dövlətimizin başçısının dediyi kimi: "Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq. Bu, bizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır".

Beləliklə, biz bərpaolunan enerjinin ixracatçısı olmağı, Avropaya "yaşıl enerji" dəhlizi çəkməyi də hədəfləmişik. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdı. Həmin vaxtdan da nəzərdə tutulan məsələlərin gerçəkləşməsi istiqamətində tədbirlər davam edir. COP29-dan bir neçə ay əvvəl Rumıniya paytaxtında sazişin icrası məqsədilə 8-ci Nazirlər - Rəhbər Komitənin iclası keçirildi. Elə həmin tədbirdə də məlum oldu ki, "Xəzər-Qara dəniz - Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılmasının ilkin nəticələrinin təqdimatının cari ilin noyabrında ölkəmizin evsahibliyi edəcəyi COP29 çərçivəsində nəzərdə tutulur. Buxarestdəki iclasda bunlar vurğulanaraq həmçinin layihənin statusu, digər komponentləri, atılacaq növbəti addımlar, eləcə də Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında qurulacaq "yaşıl enerji" dəhlizinin inkişafı ilə bağlı fikirlər səsləndirildi.

COP29 çərçivəsində isə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "Yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar. Bu sənədin əhəmiyyətini qeyd etmək üçün Prezident İlham Əliyevin imzalamadan sonra dediyi sözləri xatırladaq: "Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində də fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".

Bəli, dünyanın iqlim və enerji yolunda taleyüklü bir mərhələyə daxil olduğu indiki vaxtda Azərbaycanın "yaşıl enerji" zonaları və dəhlizləri, enerjisaxlama, şəbəkə infrastrukturu və hidrogen sahəsindəki təşəbbüslər qlobal iqlim hədəflərinə çatmaq üçün həlledici rol oynayır. Bu təşəbbüslər Azərbaycanı bərpaolunan enerjinin inkişafı və ixracında da lider mövqeyə yüksəldir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Gələcək uğurların təməli

## Naxçıvan, Şərqi Zəngəzur və Qarabağ vahid konsepsiya əsasında inkişaf edir

**"Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı çox önəmli mesaj verdi. Dövlət başçısı qeyd etdi ki, həm Qarabağ, həm Şərqi Zəngəzur, həm də ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, "yaşıl enerji" və təhlükəsizlik nöqteyi-nəzərindən vahid böyük məkana çevrilməlidir".**
**Bu fikirləri "Azərbaycan" qəzetinə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti rəisinin müavini Tural Murtuzəliyev deyib.**



O qeyd edib ki, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edirlər. Prezident İlham Əliyevin bu fikirlərində diqqətçəkən iki əsas məqam var. Birincisi, sözügedən 3 iqtisadi rayonun vahid konsepsiya halında inkişaf etməsi, ikincisi isə həmin ərazilərin iqtisadi, sosial, "yaşıl enerji" və təhlükəsizlik baxımından vahid böyük məkana çevrilməsidir. Üç iqtisadi rayonun vahid konsepsiya halında inkişaf etməsi ilə əlaqədar respublikamızın bütün bölgələrində bərpa-quruculuq işləri gedir, dövlət proqramları, xüsusi layihələr icra olunur. Üç iqtisadi rayonun vahid konsepsiya ilə inkişafı dedikdə, bunların qarşılıqlı əlaqədə inkişafı nəzərdə tutulur. Zəngəzur dəhlizi açıldıqdan sonra bu regionlar həm ölkə iqtisadiyyatı, həm region, həm də türk dünyası üçün əhəmiyyətli rol oynayacaq. "Bu regionların xüsusi iqtisadi, sosial və siyasi əhəmiyyətini nəzərə alan ölkə rəhbəri yalnız sözügedən regionlarda xüsusi idarəetmə növü - Səlahiyyətli və Xüsusi Nümayəndəlik İnstitutları yaradıb. Daha çevik və şəffaf idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə səlahiyyətli və xüsusi nümayəndələrin təyin olunması regionlarda dövlət proqramları, xüsusi iqtisadi və sosialyönümlü layihələrin uğurla icra edilməsinə səbəb olub. Prezidentin Naxçıvan Muxtar Respublikasındakı səlahiyyətli nümayəndəsi və Qarabağ, Şərqi Zəngəzura aid rayonlarda fəaliyyət göstərən xüsusi nümayəndələri dövlət başçısının sosial-iqtisadi inkişaf strategiyasını regionlarda tətbiq edir", - deyə Tural Murtuzəliyev əlavə edib.

O qeyd edib ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bölgənin hərtərəfli inkişafını hədəfləyir. Bu proqram infrastruktur, sənaye, kənd təsərrüfatı, turizm və sosial sahələrdə mühüm addımların atılması üçün yol xəritəsidir. Bu dövlət proqramı ölkə tarixində əhatəsinə, nəzərdə tutulan büdcəsinə görə ən böyük proqramlardan biridir. Proqramın icrası nəzərdə tutulan böyük perspektivdən xəbər verir.

Rəis müavini vurğulayıb ki, üç regionun vahid böyük məkana çevrilməsi istiqamətində əhəmiyyətli işlər icra olunur: "Əvvəldən görülən işlərlə yanaşı, təkcə 2024-cü ilin son ayında Prezident İlham Əliyev tərəfindən muxtar respublikanın bu yöndə inkişafına ciddi töhfə verəcək iki mühüm qərar olub: Naxçıvan Muxtar Respublikasında yeni Sənaye Parkının yaradılması və Naxçıvanda yeni istilik-elektrik stansiyasının tikintisi. Hər iki qərar maliyyə yükünə, ölkə iqtisadiyyatına olan qatqısına görə xüsusi əhəmiyyətə malikdir. Yaradılması nəzərdə tutulan Sənaye Parkı bölgənin sənaye potensialının artırılmasını, yeni iş yerlərinin açılmasını təmin etmək məqsədi daşıyır. Sənaye parkları, həmçinin yerli istehsalın artırılmasına və xarici investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Bu Sənaye Parkı xüsusilə kiçik və orta biznesin inkişafına töhfə verəcək, sosial rifahın yaxşılaşmasına dəstək göstərəcək və bölgənin iqtisadiyyatının şaxələndirilməsini təmin edəcək".

Uzun illər blokada şəraitində qalmağın Naxçıvana müəyyən çətinliklər yaratdığını xatırladan T.Murtuzəliyev bildirib ki, muxtar respublikanın İran və Türkiyə üzərindən beynəlxalq bazarlara çıxışı Sənaye Parkında yaradılacaq müəssisələri ciddi imkanlarla təmin edə bilər. Zəngəzur dəhlizi açıldıqdan sonra Naxçıvan Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarına daha sürətli inteqrasiya edəcək. Üç iqtisadi rayonun vahid konsepsiya əsasında inkişafı üçün Naxçıvanda yeni istilik-elektrik stansiyasının tikintisi ciddi töhfədir. Ehtimal olunan qiymətinə görə bu, muxtar respublikada icra olunan ən irihəcmli layihədir.

İstilik-elektrik stansiyasının faydalarından danışan xidmət rəsmisi deyib ki, birincisi, muxtar respublikanın enerji dayanıqlılığı tam təmin olunacaq, bütün hallarda enerji təminatının tam müstəqilliyi bərpa olunacaq. İkinci əsas məsələ isə ondan ibarətdir ki, muxtar respublikada alternativ və bərpaolunan enerji potensialından istifadə üçün balans rolunu oynayacaq. Bu, Naxçıvanın enerji ixracını təmin etməyə birbaşa dəstəkdir.

Rəis müavini qeyd edib ki, Naxçıvan, Qarabağ və Şərqi Zəngəzuru birləşdirən ən ortaq cəhət hər üç iqtisadi rayonun "yaşıl enerji" zonası olmasıdır: "Şərqi Zəngəzurda Cəbrayıl enerji qovşağının yaradılması elektrik enerjisinin Zəngəzur dəhlizi ilə Naxçıvana, oradan Türkiyəyə, sonra isə Avropaya ötürülməsinə şərait yaradacaq. Naxçıvan "yaşıl enerji"nin istehsalı və istehlakı ilə bərabər, ixracının da həm mənbəyi, həm də marşrutuna çevriləcək. Belə ki, muxtar respublikada mövcud olan enerji potensialının reallaşdırılması yönündə işlərə başlanılıb. Enerji sisteminin ölkənin əsas enerji sisteminə inteqrasiyası yönündə atılan addımlar enerji təminatının dayanıqlılığının qorunması və ixrac hədəflərinin gerçəkləşdirilməsinin ilkin addımlarıdır. Günəş potensialı ilə fərqlənən hər 3 regionun enerji potensialının istifadəsi ölkəmizə ciddi gəlirlər gətirəcək və neft-qaz ölkəsi ilə yanaşı enerji ixracında payını artıracaq".

Naxçıvan Muxtar Respublikasının ölkə üçün siyasi və iqtisadi strateji əhəmiyyətə malik regionlardan biri olduğunu vurğulayan T.Murtuzəliyev bildirib ki, Azərbaycanın əsas hədəfləri içərisində Zəngəzur dəhlizinin açılması ilə muxtar respublikanın inkişafının tam təmin olunması da var. Bu baxımdan muxtar respublikanın öz-özünü maliyyələşdirən bölgəyə çevrilməsi yönündə işlər aparılır. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən muxtar respublikada iqtisadi və sosial islahatlar həyata keçirilir. Naxçıvanda yenidənqurma, təkmilləşdirmə və iri layihələrin icrası davam edir və bu yöndə planlar hazırlanır. Ölkənin mövcud iqtisadi, ictimai-siyasi həyatında əhəmiyyətli yerə malik olan səlahiyyətli və xüsusi nümayəndə təyin olunmuş regionlar nəzərdə tutulan iri layihələrin və dövlət proqramlarının icrasında yaxşı nəticələr əldə edilmişdir. Belə ki, muxtar respublikada səlahiyyətli nümayəndəlik fəaliyyətə başlayan dövrün əvvəli ilə 2024-cü il arasında büdcə daxilolmalarında 72.6 faiz, yəni 97 milyon manat artım müşahidə olunub. "Yeni Naxçıvan ölkə üçün əhəmiyyətli hədəfə doğru gedir. Mərkəzi büdcədən asılılığın azaldılması istiqamətində işlər aparılır. İqtisadi yüksəlişlə yanaşı, sosial və ictimai sahələrdə də planlar icra olunur, yeni layihələr hazırlanır. Cənab İlham Əliyevin dediyi kimi, Naxçıvan və Ordubad şəhərlərinin baş planlarının hazırlanmasına da bu il başlanılır. Nəzərdə tutulur ki, ondan sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin də baş planlarının hazırlanması həyata keçirilsin", - deyə o əlavə edib.

Xidmət rəsmisi yekunda qeyd edib ki, görülən işlər, verilən vədlər nəticəsiz qalmır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan vahid inkişaf konsepsiyası ilə inkişaf edir. Bütün bunlar gələcək perspektivlərin və uğurların daha böyük olacağından xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın D-8-ə üzvlüyü əməkdaşlıq üçün yeni imkanlar yaradır

**Yeni təşkilata üzvlük yeni əlaqələr, əməkdaşlıq üçün yeni imkanlar yaradır. 2024-cü il dekabrın 19-da Azərbaycan Misirin paytaxtı Qahirə şəhərində inkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Zirvə Görüşü zamanı yekdilliklə D-8 təşkilatının üzvü seçilib .**

Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə bu məsələyə də xüsusi toxunmuşdur.

Xatırladaq ki 1996-cı il oktyabrın 22-də "İnkişafda əməkdaşlıq konfransı"ndan sonra onun qurulmasına hazırlıq işləri görülməyə başlanılıb. 1997-ci il iyunun 15-də Türkiyənin İstanbul şəhərində dövlət və hökumət başçılarının zirvə toplantısında D-8-in qurulduğu rəsmən elan olunub. Sammitdə təşkilatın yaradılması ilə bağlı İstanbul qətnaməsi qəbul edilib.

Birliyin məqsədi böyük iqtisadi potensiala, müxtəlif resurslara, əhaliyə və coğrafi əraziyə malik doqquz ölkə arasında yeni imkanları əldə etmək, ticarət əlaqələrini şaxələndirmək, beynəlxalq qərarların qəbulu proseslərində iştirakını artırmaq, daha yaxşı yaşayış təmin etməkdir.

Üzv ölkələr arasında iqtisadiyyatı ən çox inkişaf edəni Türkiyədir. Onun ardınca İndoneziya, İran, Misir, Pakistan, Malayziya, Nigeriya və Banqladeş gəlir.

Avropa, Asiya və Afrikanı - üç qitəni əhatə edən səkkiz ölkənin (Azərbaycan daxil olanadək) ümumdaxili milli məhsulun həcmi 4,5 trilyon dolları ötüb. Təşkilata üzv ölkələrin ticarət dövriyyəsi 130 milyard dollardır.

Azərbaycan təşkilata üzv olana qədər ixracat 239 milyard dollardan 600 milyard dollara yaxınlaşıb, idxalat 235 milyard dollardan təxminən 500 milyard dollara yüksəlib.

Azərbaycanın üzvlüyü ilə artıq təşkilat D-9 adlandırılır. D-9 regional yox, qlobal mahiyyətli təşkilatdır. Təşkilat qrupun məqsədlərini, prinsiplərini qəbul edən və ümumi əlaqələri paylaşan inkişaf etməkdə olan başqa ölkələr üçün də açıqdır. D-8 regional və beynəlxalq təşkilatlara üzvlükdən irəli gələn ikitərəfli və çoxtərəfli öhdəliklərə heç bir mənfi təsir göstərməyən bir forumdur.

Azərbaycanın belə bir nüfuzlu təşkilata üzv olması beynəlxalq aləmdə etibarlı bir dövlət olduğunu, davamlı, ardıcıl xarici siyasət yürütdüyünü təsdiq edən amil olmaqla ölkəmizə göstərilən yüksək etimadın göstəricisidir .

Prezident İlham Əliyev yerli telekanallara verdiyi müsahibəsində ölkəmizin bu nüfuzlu beynəlxalq təşkilata üzvlüyünü yüksək dəyərləndirərək deyib: "Bizim namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə olmuşdur. Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mən hətta bir dəfə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdim, təqribən 7-8 il bundan əvvəl. Artıq o vaxtdan bəri Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu konsensus əldə edildi. Biz əlbəttə ki, üzv ölkələrlə daha sıx təmasda olacağıq. Halbuki bu günə qədər də bütün üzv ölkələrlə bizim çox fəal münasibətlərimiz var. Biz bu qərarı yenə də uğurlarımızın qəbul olunması hesab edirik və yenə də deyirəm, bu, sadəcə olaraq, birinci addımdır. Əsas məsələ D-8-in gələcək fəaliyyəti ilə bağlı olacaq. Əlbəttə ki, bizim öz fikirlərimiz, öz gündəliyimiz var. Biz üzv ölkələrlə daim təmasda olaraq öz təkliflərimizi verəcəyik. Düşünürəm ki, D-8-in təşkilat olaraq daha böyük nüfuza malik olması məsələsi tam realdır. Hesab edirəm ki, bir halda, artıq genişlənməyə start verildi, bu, Azərbaycanla məhdudlaşmayacaq və ola bilsin ki, digər ölkələr dəvət ediləcək. Əlbəttə ki, bu məsələlərə konsensus əsasında baxılacaq".

Tarixən Şərq ilə Qərb arasında körpü rolu oynamış, islam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın bu beynəlxalq təşkilata üzvlüyü dövlətlərarası əməkdaşlığın dərinləşməsi və ümumi maraqlarımızın təşviqi, islam həmrəyliyinin möhkəmlənməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunmasına öz töhfəsini verəcəkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# 29 yanvar bələdiyyə seçkiləri günüdür









## Seçki bülletenlərinin çapına başlanıldı

**Yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb.**

"Report" xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov komissiya üzvləri və katibliyin təmsilçiləri ilə birlikdə yanvarın 11-də mətbəəyə gələrək çap prosesinin gedişi və yaradılmış şəraitlə yerində tanış olub.

Media nümayəndələrinin bilavasitə iştirakı ilə çap prosesinə baxış zamanı MSK sədri bildirib ki, vətəndaşların konstitusion hüquqlarının realizə olunmasındakı mühüm rolu nəzərə alınaraq qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada seçki bülletenlərinin çapı başa çatdırılmalı, bütün proses boyunca Seçki Məcəlləsinin tələblərinə dəqiqliklə riayət olunmalıdır.

M.Pənahov həmçinin seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına çatdırılması ilə bağlı öz tövsiyələrini də verib.

MSK sədri həm çap prosesi, həm də ümumilikdə bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə danışaraq qeyd edib ki, qanunvericiliyin tələblərinə uyğun olaraq seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilib və bələdiyyə seçkiləri ilə əlaqədar 6 milyon 52 min 721 seçki bülleteninin çap olunmasına qərar verilib.

M.Pənahov vurğulayıb ki, artıq namizədliyin qeydə alınması mərhələsi tamamilə yekunlaşmış bələdiyyələr üzrə bülletenlərin çapına başlanılıb və seçki bülletenləri çap olunduqdan sonra qanunvericiliklə müəyyənləşdirilmiş müddətdə və qaydada Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, ardınca dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

O, eyni zamanda söyləyib ki, bütün seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərtilə maraqlı subyektlər üçün tam açıq və şəffaf həyata keçirilir.

M.Pənahov brifinqin sonunda jurnalistlərin suallarını da ətraflı cavablandırıb. Məntəqələrə müəyyən səbəblərdən gələ bilməyən şəxslər üçün səyyar seçki qutularının təşkil ediləcəyini deyən Mərkəzi Seçki Komissiyasının sədri qeyd edib ki, bu, Seçki Məcəlləsinin tələbidir: "Bundan başqa, hərəkət qabiliyyəti məhdud vətəndaşlar panduslar vasitəsilə də seçki məntəqəsinə gətirilərək səsvermə prosesində iştirak edə biləcəklər".

Məzahir Pənahov deyib ki, bələdiyyə seçkiləri ilə əlaqədar məntəqələrdə veb-kameralar quraşdırılacaq. Həmin veb-kameralar min məntəqəni əhatə edəcək: "Seçkilərin keçirilməsində əsas tələblərdən biri prosesin şəffaflığıdır. Ona görə media nümayəndələri də seçkiləri sərbəst şəkildə izləyə biləcəklər".

MSK sədri qeyd edib ki, bələdiyyə seçkilərində 16 min 128 nəfərin namizədliyi qeydə alınıb, namizədlər 23 siyasi partiyanı təmsil edirlər. Həmçinin bələdiyyə seçkilərində 66 mindən artıq müşahidəçinin akkreditasiyadan keçdiyi də bildirilib.

Qeyd edək ki, Azərbaycanda bələdiyyə seçkiləri yanvarın 29-da keçiriləcək.

## YAP ölkəboyu geniş və effektiv təşviqat kampaniyası aparır









Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Naxçıvan şəhəri Naxçıvan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli qeyd edib ki, müasir, qüdrətli, güclü və qalib Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsəridir: "Heydər Əliyev yolu Azərbaycanı Zəfər zirvəsinə yüksəldib. Bu gün Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin uğurlu nəticələri hər birimizin gözü önündədir. Hazırda harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz qüdrətli dövləti ilə qürur duyur".

"İndiyədək keçirilən beş bələdiyyə seçkisinin hamısında YAP böyük üstünlüklə qalib gəlib və xalqın rifahı naminə bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsinə öz töhfəsini verib" deyən E.Cəfərli builki seçkilərdə də xalqımızın partiyanın namizədlərinə etimad göstərəcəyinə inandığını bildirib.

Seçki qərargahının üzvləri Rail Tağızadə və Nazim Bayramov, bələdiyyə üzvlüyünə namizədlər Tahir Hüseynli, Orxan Əliyev və Bahar Vəliyeva Ulu Öndər Heydər Əliyevin yerli özünüidarəetmənin inkişafı ilə bağlı müəyyən etdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıblar. Bələdiyyə seçkilərinin YAP-ın növbəti mühüm siyasi nailiyyəti kimi tarixə düşəcəyi əminliklə ifadə olunub.

❖ ❖ ❖

Xəzər rayonu Türkan və Binə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Xəzər rayon təşkilatının sədr müavini Şəfayət Nənəcanov Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin ölkəmizin sosial-iqtisadi inkişafını təmin etdiyini bildirib. O, qarşıdan gələn bələdiyyə seçkilərinin önəmindən danışıb, YAP-ın namizədləri barədə seçicilərə məlumat verib. Ş.Nənəcanov bu seçkilərdə də Yeni Azərbaycan Partiyasının qalib olacağına əminliyini ifadə edib. "YAP Zəfər partiyasıdır", - deyə vurğulanıb.

Görüşdə çıxış edən bələdiyyə üzvlüyünə namizədlər Tehran Rəhimov, Fərzəli Hacıyev, Habil Həmidov və Ramin Feyziyev görüş iştirakçılarını seçkilərdə fəal iştirak edərək Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

❖ ❖ ❖

Şamaxı rayonu Şamaxı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı bildirib ki, Ulu Öndər Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə, müstəqilliyi daimi, dönməz və əbədi etməyə nail olub: "Ümummilli Lider xalqımıza çoxsaylı tarixi nailiyyətlər qazandırmaqla yeni, müasir və müstəqil Azərbaycan reallığını yaradıb. Bu gün Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində milli məqsədlərimiz müvəffəqiyyətlə gerçəkləşdirilir, bütün sahələrdə böyük nailiyyətlər qazanılır".

T.Qasımlı bildirib ki, dövlət başçısının ölkəmizin tərəqqisinə xidmət edən siyasətinin təməlində çoxşaxəli islahatların həyata keçirilməsi dayanır: "Bu, bütün sahələrdə davamlı yüksəlişi təmin etməklə bərabər, bələdiyyə institutunun da inkişafı üçün münbit zəmin formalaşdırmışdır".

Seçki qərargahının üzvü Ağarza Bayramov və təşviqat qrupunun üzvü Fuad Səmiyev YAP-ın seçki proqramında nəzərdə tutulan hədəflərin gerçəkləşdirilməsinin yerli özünüidarəetmə orqanlarının fəaliyyətini təkmilləşdirəcəyini qeyd edərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

❖ ❖ ❖

Gəncə şəhəri Kəpəz bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Gəncə şəhər təşkilatının sədri, partiyanın İdarə Heyətinin üzvü Bayram Aslanov qeyd edib ki, müstəqil ölkəmizdə bələdiyyələrin xüsusi rolu var. Bələdiyyələrin ölkəmizdə formalaşması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Seçki qərargahının üzvləri Mehman Rzayev, Elgün Aslanov, bələdiyyə üzvülüyünə namizəd Vüqar Mehdiyev, şəhid Hacı Rauf Əsgərovun anası Brilliant Əsgərova, şəhid Mirhüseyn Seyidzadənin atası Miryunis Seyidzadə çıxış edərək, Yeni Azərbaycan Partiyasının yeni qələbələrə müvəffəq olmaq gücündə olduğunu qeyd ediblər. Onlar seçiciləri qarşıdan gələn bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Çıxış edən seçicilər də bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini diqqətə çatdırıblar.

Gəncə şəhəri Kəpəz bələdiyyəsi üzrə YAP namizədlərinin seçicilərlə məhəllə görüşləri də keçirilib.

❖ ❖ ❖

Qazax rayonu Salahlı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Görüşlərdə giriş sözü ilə çıxış edən YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev Azərbaycanın qüdrətli, sarsılmaz və böyük nüfuz sahibi olan dövlət kimi dünyada tanındığı, böyük uğurlara imza atdığını qeyd edib. O, YAP-ın hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını, partiyanın növbəti bələdiyyə seçkilərində möhtəşəm qələbə qazanacağına inamını ifadə edib.

Seçki qərargahının üzvləri Fərhad Qocamanov, Gülnaz Alişanova, Elxan Abdullayev, Pəri İbrahimova, Müqabil Məmmədov, Azər Məmmədov, bələdiyyə üzvlüyünə namizədlər Alı Budaqov, Mətanət Ayvazova, Aqil İsmayılov, Günay Allahverənova və digərləri ötən müddət ərzində bələdiyyələrin inkişafı istiqamətində mühüm addımların atıldığını, bir çox mühüm layihənin həyata keçirildiyini vurğulayıblar.

Seçicilər Nəbi Murquzov, Ayvaz Osmanov, Məzahir Hüseynov, Etibar Vəliyev və başqaları çıxış edərək YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin Yevlax rayonu Xaldan bələdiyyəsi üzrə Xaldan, Quşçu, Yuxarı Salamabad kəndlərinin və Qaraməmmədli bələdiyyəsi üzrə Qaraməmmədli və Rüstəmli kəndlərinin ərazisində yaşayan seçicilərlə görüşü keçirilib.

Görüşlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Görüşlərdə çıxış edən YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev qeyd edib ki, Yeni Azərbaycan Partiyası digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də fəal iştirakı ilə fərqlənib. Budəfəki seçkilərin də favoriti YAP-dır.

Seçki qərargahının üzvləri Bayram Yusifov, Tofiq Həsənov və bələdiyyə üzvlüyünə namizədlər Röyal Cəfərov, Telli Məmmədova, Suca Əliyeva, Əhliman Quliyev, İkram Məmmədov, Dünyamin Göygözov, Mehri Əlizadə və Xalidə Kərimova vurğulayıblar ki, ölkədəki inkişaf, dünyada baş verən hadisələr, demokratik dəyişikliklər bələdiyyələri yeni məqsədlərə, səmərəli fəaliyyətə istiqamətləndirir. Namizədlər xüsusilə bildiriblər ki, Yeni Azərbaycan Partiyası qələbələr partiyası kimi hər zaman Azərbaycanın hərtərəfli inkişafı naminə misilsiz xidmətlər göstərib.

Görüşlərdə çıxış edən seçicilər ölkəmizdəki xalq-iqtidar birliyinin sarsılmaz olduğunu qeyd edərək keçmişdə olduğu kimi, gələcəkdə də güclü Yeni Azərbaycan Partiyasını dəstəkləməyə davam edəcəklərini bildiriblər.











# Daha bir uğur ünvanı

## Azərbaycan dünyada həm də idman ölkəsi kimi tanınır

**Müasir dünyamızda hər bir ölkənin imicinin formalaşmasında idmanın güclü vasitə olduğunu hamı etiraf edir. İdman da, mədəniyyət və incəsənət kimi, xalqı beynəlxalq aləmdə tanıdan əsas faktorlardan birinə çevrilib. Tarixən idman güc, əzm, qətiyyət, dözümlülük göstəricisi olub.**

Böyük ənənələrə sahib Azərbaycan xalqı üçün sağlam həyat tərzinin həm də tərbiyəvi, vətənpərvərlik anlamı var. 44 günlük Vətən müharibəsində düşməni ölkəmizdən qovan rəşadətli ordumuzun hər bir zabiti və əsgəri tarixi ədaləti bərpa etmək üçün hər zaman güclü olmağın insana hansı üstünlüklərin verdiyini təsdiqlədi. Biz 30 il ərzində dünyanın susqunluğu şəraitində davam edən işğalın aradan qaldırılmasının güclü ordusuz mümkünsüzlüyünü dərk edən xalqın nümayəndələriyik. Ərazi bütövlüyünü bərpa etməyə qadir qüdrətli ordu isə güclü fərdlərdən təşkil olunur.

### İdmanın əsgərləri

Müasir Azərbaycanda dövlətin hərtərəfli qayğısını görən sahələrdən biri də idmandır. Onun ən müxtəlif növləri ilə bağlı həyata keçirilən proqram xarakterli tədbirlər, idmançıların dövlət tərəfindən himayə edilməsi, məşq və hazırlıq şəraitinin daim diqqətdə olması öz müsbət nəticələrini göstərməyə bilməzdi. İnşa edilən komplekslərin və yaradılan qurğuların, həyata keçirilən yarışların Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasında böyük rolu olmuşdur. Bu gün ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada idman zalları, stadionlar olmasın. Bu sağlamlıq ocaqlarında yaradılmış münbit şəraitdə yetişən gənclər Azərbaycanın idman əsgərləridir.

2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı Prezident İlham Əliyevin toxunduğu ilk məqam məhz bu oldu - idmanın vətənpərvərliyin aşılanmasındakı rolu: "İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var. Xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır".

2024-cü il də ənənəyə əsasən, Azərbaycan idmanı üçün uğurlu olub. İdmançılarımız beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edərək 1700-ə yaxın medal qazanıblar. Dövlətimizin başçısının dediyi kimi, belə bir uğur onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.

Müstəqil idman tarixi cəmi üç onilliyi əhatə edən Azərbaycan üçün əldə edilən nailiyyətlər miqyasına görə diqqət çəkir. Məsələn, son Yay Olimpiadasında ölkəmiz 200-dən çox dövlət içində medal hesabına 30-cu yeri tutmağa nail olub. Baxmayaraq ki, biz müstəqil respublika kimi ən irimiqyaslı idman tədbirlərində yalnız 1996-cı ildən etibarən iştirak edirik.

"Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir. Onu da deməliyəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır", - deyə Prezident İlham Əliyev ilin idman yekunlarına həsr olunan tədbirdə xüsusi qeyd edib.

Dövlətimizin başçısı bir fikri həmişə vurğulayır ki, Olimpiya Oyunları təkcə idman yarışı deyil, həm də böyük siyasətdir. Bu, böyük bir idman hadisəsidir və dünya miqyasında çox mühüm ictimai hadisədir. Azərbaycanın hərtərəfli inkişafı üçün idman potensialının güclənməsi xüsusi əhəmiyyət daşıyır. Çünki idman ictimai həyatın əsas hissəsidir. Tikilən idman qurğuları, sosial infrastrukturun yeniləşməsi, - bütün bunlar sosialyönümlü tədbirlərdir.

Bu gün Azərbaycan dünyanın istər siyasi, istərsə də iqtisadi sistemində özünəməxsus yeri ilə seçilir, ölkəmizlə hesablaşır, ona hörmət və ehtiramla yanaşırlar. Azərbaycan bu nailiyyəti güclü liderin - Prezident İlham Əliyevin qətiyyəti sayəsində əldə edib. Başqa fəaliyyət sahələrində olduğu kimi, Azərbaycan idmanında da böyük uğurlar qazanılıb və hazırda bu sahə sürətli inkişaf dövrünü yaşayır.

### İdman şöhrətini yaşadan ölkə

Ölkəmiz dünyada idman şöhrətini güclü idmançıları ilə yanaşı, həm də qürurla və uğurla evsahibliyi etdiyi böyük idman tədbirləri ilə də qazanmağı bacarıb. Məsələn, tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarının məhz Azərbaycana etibar edilməsi olduqca böyük nailiyyət idi. Ölkəmiz bu idman tədbirini Prezidentimizin qeyd etdiyi kimi, ümumdünya olimpiya oyunları çapında, standartlarında reallaşdırmağa müvəffəq olmuşdur. Respublikamız qitəmiqyaslı belə turnirdən iki il sonra isə Bakı İslam Oyunlarına evsahibliyi etmişdir. Avropa Oyunları üçün tikilən bütün infrastruktur İslam Oyunlarında da uğurla sınaqdan çıxarılmışdır.

Ümumiyyətlə, Azərbaycanda keçirilən iri idman yarışları bu gün Bakıda təşkil olunan qlobal beynəlxalq əhəmiyyətli tədbirlərin reallaşdırılması üçün bir təcrübə prosesi olub. Yetişdirilən gənc kadrlar, böyük könüllü ordusu və qazanılan təcrübə evsahibliyi etdiyimiz və edəcəyimiz bu kimi hadisələrin uğur açarıdır. "Bakı şəhərində ən müasir idman infrastrukturumuz var" - deyən dövlətimizin başçısı Bakıda COP29 beynəlxalq iqlim konfransının da Olimpiya Stadionunda və onun ətrafında keçirildiyini söyləmiş, vaxtilə inşa edilən idman obyektinin - Olimpiya Stadionunun böyük rolu olduğunu bildirmişdir: "Çünki əgər vaxtilə biz bunu etməsəydik, bu boyda, bu miqyasda beynəlxalq tədbiri keçirə bilməzdik - 197 ölkə, 76 min qeydiyyatdan keçmiş iştirakçı təmsil olunurdu və qonaqların məmnunluğu xüsusi qeyd edilirdi" - dedi ölkə Prezidenti. Bu sözlər üzərinə gəldiyimiz məqamın aktuallığını bir daha qabardır.

Reallaşdırlan idman yarışları turizm və büdcəyə daxilolmalar baxımından ciddi əhəmiyyətə malikdir. Məsələn, elitar idman növü olan "Formula-1" yarışları dünyanın barmaqla sayılacaq yerlərində keçirilir ki, onlardan biri də Bakıdır. Bu yarışların Azərbaycana hansı təbliğati üstünlüklərin verdiyini son illərin qran-pri etapları zamanı aşkar hiss edirik. Dolu tribunalar qazanclı turizm infrastrukturu deməkdir. Bu baxımdan, idman həm də bir marketinq gedişidir ki, dövlətimiz bu üstünlüklərdən məharətlə yararlanmaqdadır.

### Uğurların daha bir səbəbi - müasir infrastruktur

Ölkəmizin idman nailiyyətləri güclü ənənələri olan idman məktəblərimiz və idmançılaraımızla yanaşı, həm də rahat, modern və əlçatan infrastrukturun mövcudluğu ilə bağlıdır. İdmançılarla keçirilən tədbirdəki çıxışında ölkə rəhbəri dövlətin bu istiqamətdəki fəaliyyətinin qarşıdakı illərdə də davam edəcəyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Bizim həm ənənəvi medal gətirən idman növlərində, həmçinin bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb.

Ölkənin idman infrastrukturunun yenilənməsi, inşası davamlı prosesdir və qarşıdakı illərdə biz dəfələrlə bunun şahidi olacağıq. Bu il Azərbaycan növbəti, daha bir böyük idman yarışına evsahibliyi edəcək. Söhbət MDB Oyunlarından gedir. Bu yarışlar ölkəmizin 14 şəhərində baş tutacaq, mərkəz rolunda isə Gəncə şəhəri çıxış edəcək. Beynəlxalq səviyyəli idman yarışlarının ölkəmizin 14 nöqtəsində keçirilməsi bizim bir daha dünyaya öz qonaqpərvərliyimiz, həyat tərzimiz, turizm potensialımız, tarixi abidələrimizi göstərmək imkanı ilə yanaşı, həm də bölgələrdə gənclər arasında idmanın təbliği baxımından olduqca təsirli vasitə olacaq. Dövlətimiz bu istiqamətdə təxirəsalınmaz fəaliyyətini davam etdirməkdədir. Prezident İlham Əliyev dedi: "Gəncədə yeni stadion inşa edilir və oyunlara qədər istismara verilməlidir. Eyni zamanda bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi".

Bu hadisə Gəncə ilə yanaşı, digər bölgələrimizdə də tikinti, infrastruktur işərinin aparılması deməkdir ki, artıq prosesə start verilib. Dövlətimizin başçısı çıxışında görülən və görüləcək işlərin anonsunu da verdi. Qeyd olundu ki, Gəncə şəhərində 7000 iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək üçün şərait yaradılmalıdır və bununla bağlı müvafiq göstərişlər verilib. Həm şəhər infrastrukturu, şəhər nəqliyyatı tamamilə yenilənəcək, həm də tarixi binaların bərpası və digər infrastruktur layihələr icra ediləcək: "...Bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu oyunlara da hazırlaşırıq. Əminəm ki, bu oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər".

### Qarabağ və Şərqi Zəngəzurda yeni idman qurğuları yaradılır

Azərbaycan xalqı illər boyu ən ağrılı-acılı yarasını - işğal altında olan torpaqlarımızın geri qayıdışını gözləyib. 2020-ci ilin Vətən müharibəsi və 2023-cü ildəki antiterror əməliyyatı ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qalib ordumuz xalqımızın bu nisgilini sağaltmağa müvəffəq olub. Artıq 5-ci ildir ki, biz dövlətin bütün gücü, səyi ilə azad olunmuş yurdumuzu bərpa etdiyinin şahidiyik. Tikilən yeni yaşayış massivləri, iqtisadi və sosial infrastruktur, təhsil, tibb, mədəniyyət ocaqları ilə yanaşı, idman kompleksləri və qurğuları da var. Yaxın illərdə Qarabağı və Şərqi Zəngəzuru bəzəyən binaların arasında idman zalları, stadionlarımız da olacaq. İllərdir Azərbaycanı dünyada tanıdan "Qarabağ" Futbol Klubu oyunlarını doğma Ağdamdakı "İmarət" stadionunda keçirəcək. "...Mən bilirəm ki, bizim idmançılarımız müntəzəm olaraq o bölgələrə səfərlər edirlər. Artıq orada 10 min insan yerləşib. Onların böyük hissəsi uşaqlardır, gənclərdir. O yerləri heç vaxt görməyən uşaqlar, gənclər böyük həvəslə oraya qayıdırlar. Əlbəttə ki, Azərbaycanın görkəmli idmançılarının azad edilmiş torpaqlara müntəzəm səfərləri gənclər üçün də, uşaqlar üçün də böyük hadisə olacaq. Ona görə hesab edirəm ki, idman yarışları öz yerində, amma, eyni zamanda, indi müxtəlif tədbirlər çərçivəsində Azərbaycan idmançıları, cəmiyyətimizin digər tanınmış simaları, ziyalılar o bölgələrə nə qədər çox səfər etsələr, o qədər də yaxşı olacaq, həm onlar üçün, həm orada yaşayanlar üçün" - deyən Prezident bir daha nümayiş etdirdi ki, çıxış və iştirakçısı olduğu istənilən tədbirin məzmunundan asılı olmayaraq, azad edilmiş torpaqlarda aparılan işlər və əhalinin vətənə qayıtması onun üçün ən aktual mövzu olaraq qalacaq.

Prezident İlham Əliyev müasir Azərbaycanın müstəqil idmanının formalaşdığı ilk gündən bu şərəfli prosesə rəhbərlik edir. İdman Azərbaycanın tarixi uğurlar qazandığı fəaliyyət sahələrindən biridir. Onun cəhbədəki qələbələrimizin əldə edilməsində böyük təbliğati və tərbiyəvi rolu var. Hər bir idmançımızın beynəlxalq arenalarda qazandığı qələbənin nəticəsi olaraq müqəddəs bayrağımızı qürurla yüksəltməsində, əsgər salamı verməsində niyyəti, arzusu işğal altında olan torpaqlarımızı azad görmək olub. Minlərlə gəncimiz idman uğurlarımızdan həvəslənərək cəhbədəki zəfərlərimizə kökləniblər. "Mən Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə seçiləndən sonra çox yaxşı görürdüm ki, əgər idmançılara dövlət qayğısı göstərilməsə, idman inkişaf edə bilməz və idmanın inkişafının bir çox amilləri Azərbaycanda vəhdət təşkil edir, ilk növbədə, dövlət dəstəyi. Bütün təltiflər tamamilə əsaslıdır. Həm idmançılar, həm də idman ictimaiyyətinin nümayəndələri, eyni zamanda, məşqçilər və digər idman mütəxəssisləri dövlət tərəfindən layiqincə qiymətləndirilir və bu da ədalətlidir" - deyən Azərbaycan Prezidenti xalqımızın qələbələrə doğru qürurlu yoluna belə başçılıq edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın perspektivləri müzakirə olunub

**Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev yanvarın 11-də bu ölkənin xarici işlər naziri Maka Boçorişvili ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüşdə əsasən ikitərəfli gündəlikdəki cari məsələlər diqqət mərkəzində olub. Bu kontekstdə xarici işlər nazirinin Azərbaycana rəsmi səfərinin təfərrüatları, o cümlədən Azərbaycan ilə Gürcüstan arasında Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti 10-cu iclasının keçirilməsi məsələsi müzakirə edilib. Tərəflər ölkələrimiz arasında strateji tərəfdaşlığın geniş spektrini bir daha müsbət qiymətləndiriblər.

Həmçinin ticarət-iqtisadi, nəqliyyat və enerji sahələrində uğurlu əməkdaşlığa xüsusi diqqət yetirilib.

Söhbət zamanı regionun dinc və sabit inkişafının vacibliyi qeyd edilib. Tərəflər Gürcüstan və Azərbaycan arasında nümunəvi strateji əməkdaşlığı daha da inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.



# Yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi, Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidenti Orxan Nəzərli Latviyanın Dövlət Gəlir Xidmətinin baş direktoru Bayba Smite Roçe ilə videoformatda görüş keçirib.**




Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılıb. Tərəflər həm ikitərəfli səviyyədə, həm də IOTA çərçivəsində administrasiyalar arasında birgə fəaliyyətin şaxələndirilməsi, vergi sahəsində təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi hər iki ölkə üçün iqtisadi təcrübələrin təşviqi baxımından əhəmiyyət daşıyır. Tərəflər rəqəmsal vergi inzibatçılığı, elektron ticarətlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi, əməkhaqqından tutulan gəlir vergisi və sosial ayırmalar, əmlak vergisinin vaxtında və tam həcmdə ödənilməsi, kölgə iqtisadiyyatı ilə mübarizə məsələlərini, eləcə də ƏDV inzibatçılığı sahəsində potensial əməkdaşlıq istiqamətlərini nəzərdən keçiriblər.

# Azərbaycanda yeni milli park yaradılacaq

**Azərbaycanda yeni milli parkların yaradılması istiqamətində işlər aparılır.**

Bunu "Report"a açıqlamasında Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis müavini Rəşad Allahverdiyev deyib.

Onun sözlərinə görə, son illərdə ölkə ərazisində xüsusi mühafizə olunan ərazilərin sahəsinin genişləndirilməsi və yenilərinin yaradılması istiqamətində məqsədyönlü fəaliyyət davam etdirilir. Hazırda Azərbaycan ərazisində 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 təbiət yasaqlığı fəaliyyət göstərir ki, onların da ümumi sahəsi 893 min hektar olmaqla ölkə ərazisinin 10,3 faizini təşkil edir. Xüsusi mühafizə olunan ərazilər şəbəkəsi 2001-ci ilə qədər 478 min hektar təşkil edirdisə, hazırda bu rəqəm 2 dəfəyədək artırılıb: "Əhəmiyyətli və unikal təbii landşaft müxtəlifliyinə malik Qanıx çayı vadisini və Axarbaxar dağ silsiləsini əhatə edən Bozdağ-Acınohur Milli Parkının, həmçinin İlisu Dövlət Təbiət Qoruğunun bazasında İlisu Milli Parkının yaradılması üzrə işlər davam edir. Milli parklarda infrastruktur layihələrinin həyata keçirilməsi, eyni zamanda, yeni turizm marşrutlarının yaradılması və milli park heyətinin bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində tədbirlər davam edir".

R.Allahverdiyev deyib ki, milli parklar xüsusi mühafizə olunan təbiət əraziləri olaraq təbii arealın və ekosistemlərin mühafizəsi istiqamətində ixtisaslaşıb. Bəzi milli parklarda müəyyən reintroduksiya layihələrinin aparılması istiqamətində işlər aparılır: "2010-cu ildən etibarən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İDEA İctimai Birliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan Nümayəndəliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsi həyata keçirilir. Layihə çərçivəsində İndiyədək Şirvan Milli Parkından tutulmuş ümumilikdə 396 baş ceyranın respublikanın müxtəlif ərazilərinə (Ağgöl və Abşeron Milli Parkları, Korçay Dövlət Təbiət Qoruğu, Qax Dövlət Təbiət Yasaqlığı, Şamaxı yolu (Pirəkəşkül), Cəbrayıl və Samux rayonuna), eləcə də Gürcüstan Respublikasının Vaşlovani Milli Parkına reintroduksiyası həyata keçirilib".

O əlavə edib ki, 2012-ci ilin sonlarından etibarən zubrların (Bison bonasus) Azərbaycanın vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində intensiv işlər aparılır: "Belə ki, 2015-ci ildə Şahdağ Milli Parkının İsmayıllı rayonunun inzibati ərazisinə aid olan hissəsində 305 hektar sahə ayrılıb, orada onların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib. Reintroduksiya layihəsi çərçivəsində 2019-2023-cü illər ərzində ölkəmizə Fransa, Belçika və Almaniya zooparklarından 46 baş Avropa bizonu gətirilib və sayında artım müşahidə olunaraq 68 başa çatıb".

Xidmət rəsmisi əlavə edib ki, milli parklara yerli və xarici turistlərin marağı çox yüksəkdir: "Milli parklarımızda hazırda 120 turizm marşrutu fəaliyyət göstərir. 2024-cü il ərzində milli parklara 224 min turist səfər edib. Bunların, əlbəttə ki, böyük əksəriyyəti yerli, bir qismi isə xarici turistdir. COP29 tədbirləri çərçivəsində milli parklarımıza xarici qonaqların səfərlərinin artmasını xüsusi qeyd etmək istərdim. Xüsusi mühafizə olunan təbiət əraziləri iqlim dəyişmələri ilə mübarizədə əsas adaptiv tədbirlərdən hesab olunur".







# Qərbi Azərbaycana qayıdış missiyası

**İkinci Qarabağ müharibəsini zəfərlə bitirəndən dərhal sonra işğaldan azad edilmiş ərazilərə uğurla Böyük qayıdışı həyata keçirən Azərbaycan dövlətinin qarşısındakı növbəti hədəf erməni şovinistləri tərəfindən etnik təmizləməyə məruz qalaraq dədə-baba torpaqlarından zorla didərgin salınan qərbi azərbaycanlıların öz tarixi yurdlarına dönüşünü gerçəkləşdirməkdir.**




Bu mövzunu siyasi gündəliyə gətirən və yüzminlərlə soydaşımızın qayıdış hüququnu yüksək tribunalardan səsləndirən Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində qətiyyətlə vurğuladı ki, bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana, o cümlədən Qərbi Zəngəzura yerləşəcəklər.

## Tarix olduğu kimi

Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti həyata keçirən erməni millətçiləri XIX-XX əsrlər ərzində mərhələli şəkildə soydaşlarımızı indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovublar.

1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz İrəvan Ermənistana bağışlanıb. 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra digər torpaqları sovet hökumətinin xain siyasəti nəticəsində Ermənistana birləşdirilib, 1948-1953-cü illərdə qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar. 1987-ci ildən erməni millətçiləri sovet hökumətinin dəstəyi ilə azərbaycanlıları tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediblər.

Ermənilər Qərbi Azərbaycanda maddi-mədəni irsimizə qarşı soyqırımı siyasəti həyata keçiriblər, toponimlərimizi dəyişdirib uydurma adlar qoyublar, türk dilində mövcud olan yer adlarını ermənicəyə çeviriblər.

Qondarma Ermənistan dövlətinin faşist ideyalı daha bir prezidenti Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-də - Ağdamın işğalı günündə "Yerkrapa" könüllülər birliyinin toplantısında etdiyi çıxışının videoyazısı bu günlərdə üzə çıxıb. Faşist Petrosyan açıq şəkildə ermənilərin həyata keçirdikləri işğalçılıq siyasətindən, azərbaycanlılara qarşı etnik təmizləmədən bəhs edib, düz 6 əsrdir ki, ermənilərin Qarabağ, indiki Ermənistan ərazisini yad millətlərdən, yəni əsrlərdir bu ərazilərdə yaşayan yerli azərbaycanlılardan tamamilə təmizlədiklərini bildirib.

Eyni zamanda Petrosyan adlı bu murdar məxluq etiraf edib ki, indiki Ermənistan ərazisində üç rayonda azərbaycanlılar çoxluq təşkil edirdi - Vardenis, Masis və Amasya. Zəngəzurda isə onların sayı həddindən artıq çox idi.

Göründüyü kimi, faşist Robert Koçaryan, Serj Sarkisyan kimi, qondarma Ermənistanın birinci prezidenti də milli nifrət zəminində azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdiklərini həyasızlıqla etiraf edib. 30 ildən sonra olsa da üzə çıxan Petrosyanın bu qanlı etirafları beynəlxalq məhkəmələrdə erməni faşistlərinin əleyhinə işləyəcək əsaslı dəlildir. Həm də bu təkzibedilməz faktlar əsasında qərbi azərbaycanlılar tarixi torpaqlarına qayıdacaqlar.

## Beynəlxalq norma və prinsiplərə uyğun tələb

Azərbayan dövlətinin gündəliyində duran vacib məsələlərdən biri Ermənistandan qovulmuş yüzminlərlə soydaşımızın hüququnun bərpası, onların tarixi torpaqlarına qaytarılmasıdır.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi Prezident İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərdə Bakı şəhərində "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.

Qərbi azərbaycanlıların doğma torpaqlarına geri qayıdışı ilə bağlı məsələni hər zaman diqqətdə saxlayan Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı söylədi ki, bu məsələ artıq beynəlxalq gündəliyə salınmışdır: "Bundan sonra, əlbəttə ki, bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar. Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir".

Dövlət başçısı onu da vurğuladı ki, yaxşı olardı ki, Ermənistanın baş naziri Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etsin: "Əgər bunu etməsə, onda hansı Avropa demokratiyasından söhbət gedir?"

## Paşinyanın "sülhsevər hekayəsi"

Ancaq özünü "sülh göyərçini" kimi qələmə verən baş nazir Nikol Paşinyan Ermənistandan qovulmuş azərbaycanlıların haqlı tələblərini yerinə yetirmək əvəzinə bu məsələ ətrafında manipulyasiyalar edərək beynəlxaq ictimaiyyəti çaşdırmağa çalışır. N.Paşinyan bu günlərdə sosial şəbəkələrdə yaydığı statusda da növbəti dəfə sözügedən məsələ ilə əlaqədar cəfəng, tarixi və coğrafi faktları danan məlumatlar verib.

Eyni zamanda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bu il yanvarın 8-də keçirilən mətbuat konfransında Qərbi Azərbaycan İcması və ümumilikdə indiki Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası ilə bağlı saxta iddialar səsləndirib.

Ermənistanın baş naziri Nikol Paşinyanın iddialarına cavab verən Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bununla bağlı sosial mediada paylaşım edib: "Maraqlıdır ki, sizin "sülhsevər hekayəniz" regionda davamlı sülh və sabitliyin bərqərar olmasının ən mühüm sütunundan, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmətdən yayınır.

Əgər Ermənistan həqiqətən də qonşuları ilə sülhün qurulmasında maraqlıdırsa, niyə siz hamınızın "Qərbi Ermənistan" və "Dağlıq Qarabağ Respublikası" adlandırdığınız ərazilərə iddialarından konstitusiyanız və milli qanunvericiliyiniz çərçivəsində imtina prosesinə başlamaqdan bütün vasitələrlə imtina edirsiniz? Bağışlayın, amma sizin arqumentiniz Ermənistanın "xoş niyyətinin" təsdiqi sayıla bilməz".

## Qayıdışa mane ola bilməyəcəklər

Həmçinin XİN-in Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tərəfindən mətbuat konfransı zamanı Qərbi Azərbaycan İcması ilə bağlı səsləndirilən iddialara dair şərhində bildirilir ki, Ermənistanın Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadə olunmasını "beynəlxalq hüquq pozuntusu", "ərazi iddiası" kimi təqdim etməsi riyakarlıqdır. Ermənistan rəsmilərinin azərbaycanlıların öz torpaqlarına qayıdış hüququnu müxtəlif bəhanələrlə təkzib etməsi azərbaycan ərazilərini "erməniləşdirmək" və azərbaycanlıların geri qayıdışına hər vəchlə mane olmaq məqsədinin açıq-aşkar nümunəsidir.

*Göründüyü kimi, indiki Ermənistan hökumətinin başında dayananlar da açıqlamaları ilə heç də Ter-Petrosyan, Robert Koçaryan, Serj Sarkisyan kimi faşist ideologiyalı keçmiş liderlərdən fərqlənmədiklərini nümayiş etdirirlər. Ancaq hələ də davam etməkdə olan erməni şovinizminin bütün bu murdar planları, niyyətləri tarixə, beynəlxalq hüquqa dayanan gerçəkləri dəyişdirə bilməyəcək. Qərbi azərbaycanlılar layiqli və təhlükəsiz şəkildə dədə-baba torpaqlarına - Qərbi Azərbaycana qayıdacaqlar.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Ədalət mühakiməsi başlayır

## İşləri məhkəməyə göndərilən ünsürlər layiqli cəzalarını alacaqlar

























**2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirlərinin nəticəsində Qarabağdakı erməni separatçılığına, qondarma respublikanın mövcudluğuna birdəfəlik son qoyuldu.**

Bu tarixi zəfər bir daha Prezident İlham Əliyevin qətiyyətinin, güclü siyasi iradəsinin təntənəsinə çevrildi və bununla Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Ermənistanın və dünya ermənilivinin torpaqlarımızda ikinci erməni dövləti yaratmaq xülyası tarixin zibilliyinə atıldı.

## 1389 cinayət işi

Azərbaycan dövləti yalnız torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası ilə kifayətlənmədi. Antiterror əməliyyatlarının nəticəsi olaraq həm də onilliklər boyu torpaqlarımızda separatçılıqla məşğul olanlar, milli kimliyimizə düşmən kəsilərək xalqımıza qarşı kütləvi qətliamlar, soyqırımları, müharibə cinayətləri törədən erməni cəlladları da həbs edildilər, əlləri qandallanaraq Bakıya gətirildilər.

Azərbaycan Respublikası Baş Prokurorluğunun ötən ay yaydığı məlumata əsasən, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ Respublikası" və onun qanunsuz silahlı birləşmələri tərəfindən respublikamıza qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi məhkəməyə göndərilib.

Qeyd edək ki, Azərbaycan Respublikasının baş prokurorunun qərarı ilə 1987-ci ilin oktyabr ayından 22 aprel 2024-cü ilədək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikamızın ayrı-ayrı istintaq qurumlarında istintaq edilən 1389 cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

## 16 təqsirləndirilən şəxs

Toplanmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Arkadi Qukasyan, Arayik Harutyunyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan, Davit Manukyan, Qarik Martirosyan, Melikset Paşayan, Davit Allahverdiyan, Qurqen Stepanyan, Levon Balayan, Madat Babayan, Vasili Beqlaryan və Erik Qazaryan cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Cinayət Məcəlləsinin bir sıra maddələri ilə təqsirləndirilirlər.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğunun ötən il dekabrın 28-də yaydıqları birgə məlumata əsasən isə Rusiya vətəndaşı olmuş, hazırda Ermənistan vətəndaşı olan, Rusiyada "Troyka Dialoq" şirkətinin təsisçisi və rəhbəri Ruben Vardanyanın da cinayət işi məhkəməyə göndərilib. Qeyd edək ki, bir vaxtlar Azərbaycanın Qarabağ bölgəsində at oynadan, respublikamızı təhdid edən Ruben Vardanyan antiterror əməliyyatlarından bir neçə gün sonra Ermənistana qaçmaq istəyərkən saxlanılıb. Toplanmış sübutlar əsasında ona Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və qanunsuz silahlı birləşmələri əhatə edən cinayətkar birlikdə, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılmasında və fəaliyyətinin təşkilində iştirak etdiyinə görə Azərbaycan Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən yekun ittiham elan olunub.

Bu həmin Ruben Vardanyandır ki, Xankəndidə oturub terrorçuluğu maliyyələşdirir, Azərbaycana qarşı hədyanlar söyləyirdi. Arayik Harutyunyan isə 2000-ci ildə qondarma respublikanın "prezidenti" kimi "andiçməsini" Şuşada keçirmiş, "vəzifəsinə" başladığı ilk gündən bizi başqa torpaqlarımızın da işğal edilməsi ilə hədələmişdi. Vətən müharibəsində isə bu cani Gəncənin raket atəşinə tutulması üçün əmr verdiyi ilə qürurlanırdı.

Ayrı-ayrı vaxtlarda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan və Bako Sahakyan da əlləri xalqımızın qanına bulaşmış cəlladlardır. Onlar yəqin ki, nə vaxtsa həbs olunacaqlarına inanmaq istəməzdilər. Lakin bu baş verdi və bir vaxtlar torpaqlarımızı işğal etmələri ilə qürurlanan, Azərbaycanı yeni ərazilərin işğalı ilə təhdid edən, Şuşada yallı gedən bu ünsürlər indi məhkəmələrini gözləyirlər. Onları mühakimə edən isə güclü və qalib Azərbaycan dövlətidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənistan bölgəni müharibəyə sürükləyir

**Azərbaycan regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün Ermənistanla müxtəlif məkanlarda xoşniyyətli danışıqlar aparır. Azərbaycandan fərqli olaraq Ermənistanın "fəaliyyəti" onun sülhdən yayındığını açıq-aydın göstərir. İrəvan ona verilən şansları dəyərləndirə bilmir. Ermənistanın baş naziri Nikol Paşinyan nə qədər özünü "sülh göyərçini" kimi təqdim etməyə, məsələnin mahiyyətindən qaçmağa çalışsa da, yaxın tarixin reallıqları unudulmayıb.**



Ermənistan rəhbəri son illərdə xarici ölkələrlə bir neçə milyard dollarlıq silah müqavilələri imzaladığını, öz hərbi sənayesinə bir neçə yüz milyon dollar dəyərində sifarişlər verdiyini açıqlamışdı. O həmçinin orduya qadınların cəlb olunmağa davam etdiyini, ordunun ehtiyat qüvvələrinin formalaşdırıldığını xatırladıb.

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsi bitdikdən sonra Ermənistan hökuməti hər il hərbi büdcəsini artırmaqda davam edir. Kapitulyasiyadan sonrakı ildə Ermənistanın hərbi büdcəsi 600 milyon ABŞ dolları olmuşdusa, 2024-2025-ci fiskal ilində Ermənistanın Hindistandan alacağı silahların dəyəri 600 milyon ABŞ dollarına bərabərdir. Lokal xarakterli antiterror tədbirlərinin keçirildiyi 2023-cü ildə Ermənistan 2021-ci illə müqayisədə 100 faizdən çox artım edərək hərbi büdcəsini 1.28 milyard dollara çatdırıb. Ötən ildə Ermənistanın hərbi xərcləri 1.37 milyard dolları keçib. Postsovet məkanında ümumi daxili məhsulda hərbi xərclərin ən yüksək göstəricisi olan ölkə də 4.2 faiz olmaqla məhz Ermənistandır.

Ermənistan hökumətinin Azərbaycan ilə diplomatik manevrlərə təkbaşına qərar vermədiyi hər kəsə məlumdur. Nikol Paşinyan bu gün Cənubi Qafqazda qeyri-stabillik yaratmağı qarşısına məqsəd qoyan Fransa ilə koordinasiyalı addımlar atır. Rəsmi Parisin, eləcə də bir neçə Avropa İttifaqı (Aİ) ölkəsinin dəstəyi ilə militarizasiya yolu tutan İrəvan regionda davamlı sülh yerinə yeni potensial münaqişə ocağı formalaşdırmaq niyyətindədir. Ermənistan bundan öncə Fransadan "Bastion" çoxməqsədli zirehli avtomobillər və "Sezar" özüyeriyən artilleriya qurğuları almışdı. Ardınca isə Avropa İttifaqının da Ermənistana Sülh Fondundan 10 milyon avro dəyərində hərbi dəstək ayırması məsələsi gündəmə gəldi.

Qərbin bir sıra hakim dairələri məğlub ölkəni silahlandırmaqla onu yeni münaqişəyə təhrik etməyə, sülh danışıqlarının irəliləməsinə mane olmağa çalışır. Bütün bunlara paralel olaraq Nikol Paşinyan ikibaşlı oyun oynamaqda davam edir. Belə ki, baş nazir ATƏT-in Minsk qrupunun buraxılması və beynəlxalq məhkəmələr, qarşılıqlı iddialardan imtina da daxil olmaqla Azərbaycanla sülhün əldə edilməsinə dair 12 təklifini açıqlayıb. Məğlub ölkənin baş naziri bu barədə sosial media hesabında paylaşım edib. Digər təkliflərə silahlara qarşılıqlı nəzarət mexanizmlərinin formalaşdırılması, döyüşkən ritorikadan imtina və sülh müqaviləsinin imzalanması ilə "Dünyanın kəsişməsi" layihəsinin həyata keçirilməsi daxildir.

Ermənistanın baş nazirinin fikrincə, Azərbaycanın iki hissəsi arasında Ermənistan ərazisindən keçən kommunikasiya məsələləri (və əksinə) və iki ölkədən olan qaçqınların problemləri bütövlükdə nəzərə alınmaqla, bu çərçivədə həll edilə bilər. Həmçinin bu məsələyə ekspert komissiyalarının cəlb edilməsini də zəruri sayır.

Göründüyü kimi, Paşinyanın mövqeyi sülhü yaxınlaşdırmır, əksinə, uzaqlaşdırır. Paşinyan Azərbaycana Qərbi Azərbaycan terminindən imtinanı "tövsiyə" edir. Eyni zamanda Qərbi Azərbaycan dedikdə Naxçıvanı və digər ərazilərimizi nəzərdə tutduğunu bildirir. Bununla da o, Azərbaycan Prezidentinin qərbi azərbaycanlılarla görüşüb, onları dinləmək təklifindən yayınmağa cəhd göstərir. Halbuki Petrosyanın da etiraf etdiyi kimi, bu azərbaycanlılar öz torpaqlarından silah gücünə qovulublar və bu məqsəd üçün erməni terrorçular 216 mülki azərbaycanlını xüsusi amansızlıqla qətlə yetiriblər.

Bütün bunlar əyani şəkildə Ermənistanın sülhə hazır olmadığını göstərir. Paşinyan təkliflərin absurd və icrasının qeyri-real olduğunu özü də yaxşı anlayır. Əksinə, bununla hərbləşmə siyasətinə "özünümüdafiə" donu geyindirmək, beynəlxalq birliyin gözü önündə sülh təşəbbüskarı kimi görünmək istəyir. Amma təbii ki, onun bu primitiv diplomatik oyunları istər Bakı, istərsə də digər regional oyunçular tərəfindən aydın görünür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Jurnalist araşdırması

# Torpağı və orqanizmi zəhərləyən torbalar



**Polietilen torbalardan və birdəfəlik plastik qablardan istifadənin ətraf mühitlə yanaşı, insan sağlamlığına da mənfi təsirlərinin olduğu hər kəsə - həm istehlakçıya, həm də istehsalçıya məlumdur. Belə torbaların zərərləri nəzərə alınaraq "Ətraf mühitin mühafizəsi haqqında" qanuna əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların ictimai iaşə və xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağan olundu. "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"na edilən dəyişikliklərə əsasən, qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara ayrıca məhsul növü kimi təqdim edilməyə başlandı. Beləliklə, 2023-cü il fevralın 15-dən marketlərdə polietilen torbalar ölçülərinə görə ödənişli əsaslarla təklif olundu.**

Bioçantalardan istifadənin stimullaşdırılması məqsədilə sahibkarlara müraciətlər olundu, həmçinin yeni qaydaların tətbiqi ilə bağlı xüsusi tapşırıqlar verildi. Qanuna dəyişikliyə əsasən, qaydaları pozan sahibkarları İnzibati Xətalar Məcəlləsinin 275.4-cü maddəsinə əsasən, qeyd olunan məhsulların ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçılara satılması və ya verilməsinə görə, inzibati xətanın bilavasitə obyekti olan plastik materiallar müsadirə edilməklə, vəzifəli şəxsləri min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxsləri isə üç min manatdan dörd min manatadək məbləğdə cərimə gözləyirdi.

Amma müşahidələr göstərir ki, nə qanun, nə də onun cəzası zərərli polietilen torbalardan geniş istifadənin qarşısını alıb. Bunu gündəlik həyatımızda daim görürük. Böyük market şəbəkələri tərəfindən bioçantalardan istifadənin genişləndirilməsi məqsədilə stimullaşdırıcı, geniş və yaddaqalan kampaniyanın keçirildiyini də xatırlamaq olmur.

Qonşu Türkiyədə 2019-cu ildən polietilen torbalar müəyyən məbləğ qarşılığında alıcılara təklif olunmağa başlanılıb. İlkin mərhələdə sellofanların qiyməti 25 kuruş təyin olunmuşdu. Türkiyə Ekologiya, Şəhərsalma və İqlim Dəyişiklikləri Nazirliyinin məlumatına görə, bununla adambaşına aylıq plastik torba sayında 3 dəfədən çox azalma müşahidə edilib. Beləliklə, 2019-cu ildən 2024-cü ilin birinci ayına qədər olan dövrdə 1,5 milyon ton plastik tullantının əmələ gəlməsinin qarşısı alınıb. 25 kuruş inflyasiya səbəbindən əvvəlki dəyərini itirməsi plastik torbaların qiymətini yenidən artırıb. Belə ki, qərara əsasən, yanvarın 1-dən 50 kuruş olaraq müəyyənləşib.

Ölkəmizdə polietilen torbaların ödənişli olmasından sonra istifadəsində nə kimi dəyişikliklər olduğunu, eyni zamanda qiymətlərdə artım olub-olmayacağını araşdırdıq.

### Plastik torbalardan istifadə 70 faizədək azalıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekosiyasət şöbəsinin sektor müdiri Mehman Nəbiyev qəzetimizə açıqlamasında bildirdi ki, polietilen torbaların marketlərdə pullu satışı ilə bağlı qərar 2021-ci ilin fevralında qəbul olunub və sahibkarlar bu qərarın tətbiqinə 2023-cü ilin fevralından başlayıblar: "İki ilə yaxın müddət keçməsinə baxmayaraq, belə torbalardan istifadə azalıb. Bunu adi müşahidələrlə də qeydə almaq mümkündür. Əvvəllər alıcılar kassadan ayrılarkən 4-6, bəzi hallarda 8 torba götürdüyü halda indi 1-2 torbadan istifadə edirlər".

Sektor müdiri qeyd etdi ki, market şəbəkələrində aparılan monitorinqlərin nəticələrinə görə, qərarın qəbulundan ötən müddət ərzində plastik torbalardan istifadə 40-60 faiz, bəzi marketlərdə 70 faiz azalıb. Həmin plastik torba tullantılarının da bu qədər azalması deməkdir.

M.Nəbiyev bildirdi ki, plastik torbaların ödənişli olması bu istiqamətdə atılan addımlardan yalnız biridir. Bununla yanaşı, alternativ materialdan olan qablaşdırma istehsalçıları üçün də güzəştli şərtlər qəbul edilir. Belə ki, bu il yanvarın 1-dən kvars kağız xammalı gömrük rüsumundan azad edilib ki, bu da kağız torba istehsalçıları üçün əlverişli imkan yaradır. Eyni zamanda bioplastik istehsalı sahəsinə maraq göstərən sahibkarlar da nazirliyə müraciət edərək, bazarın qiymətləndirilməsini aparırlar. "Hazırda plastik torbaların satış qiymətinin öz dəyərinə uyğunlaşdırılması ilə bağlı təkliflərimiz aidiyyəti qurumlara və bu sahədə fəaliyyət göstərən sahibkarlara təqdim olunub. Digər ölkələrin təcrübəsi göstərir ki, plastik torbalar pullu olduqdan və qiyməti artırıldıqdan sonra bu torbalardan istifadə 60-70 faiz, bəzi hallarda 90 faiz azalıb. Ölkəmizdə də bu istiqamətdə ardıcıl addımların atılması nəzərdə tutulur.

Polietilen torbaların qiymətinə gəlincə isə sektor müdiri bildirdi ki, qiymətləri sahibkarlar özləri müəyyən edirlər: "Qeyd etdiyim kimi, torbaların azaldılması təkcə onun qiymətinin artırılması ilə məhdudlaşdırılmır. Bu, atılan addımlardan yalnız biridir. Qiymət artımında məqsəd alternativ materialdan qablaşdırma istehsalına maraq göstərən sahibkarlara rəqabət mühiti yaratmaqdır. Məqsəd də odur ki, onlar da bu bazara daxil ola bilsinlər və yekunda marketlərdə təkcə plastik torbalar deyil, digər materialdan olan, ətraf mühitə zərərli təsir göstərməyən qablaşdırma məhsulları da təklif olunsun".



***Mehman Nəbiyev,***
*ETSN-in sektor müdiri:*

- Qərarın qəbulundan ötən müddət ərzində plastik torbalardan istifadə 40-60 faiz, bəzi marketlərdə 70 faiz azalıb. Bu, plastik torba tullantılarının da bu qədər azalması deməkdir.

M.Nəbiyev vurğuladı ki, yerli sahibkarlar bioplastikin ölkədə istehsalına maraq göstərirlər. Ölkəyə idxal olunan bioplastik çantaların qiyməti yüksək olduğundan sahibkarların diqqətini o qədər də çəkmirdi. Yerli istehsal qurulandan sonra isə marketlərdə daha ucuz qiymətə bioplastik məhsullar təklif oluna bilər.

### Polietilen torbalarla bağlı indiyədək cərimə tətbiq edilməyib

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən sorğumuza cavab olaraq bildirildi ki, "Ətraf mühitin mühafizəsi haqqında" qanunun 46-cı maddəsinə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi qadağandır. Həmçinin Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"na əsasən, ticarət, ictimai iaşə, məişət və digər növ xidmətlərin göstərilməsi zamanı istehlakçılar tərəfindən malların və məhsulların daşınması üçün nəzərdə tutulan, qalınlığı 15-50 mikron olan, qulplu və qulpsuz, yüngülçəkili polietilen torbalar istehlakçılara ayrıca məhsul növü kimi təqdim edilməlidir. Bu növ məhsulların ayrıca təqdim edildiyi onlara bildirilməli və satış qiyməti haqqında istehlakçıya əvvəlcədən məlumat verilməlidir.

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanun ilə ölkə ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2025-ci yanvarın 1-dək dayandırıldığından Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən həmin tarixədək sözügedən hallarla bağlı yoxlama və monitorinqlər həyata keçirilməyib. "Buna baxmayaraq, Dövlət Xidməti tərəfindən Bakı şəhəri və regionlarda ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan sahibkarların iştirakı ilə mütəmadi maarifləndirmə tədbirləri keçirilir. Sahibkarlıq subyektlərinə müvafiq sahədə qanunvericiliyin tələbləri izah olunur və sözügedən məhsulların satılmasına görə qanunvericilikdə nəzərdə tutulan məsuliyyət barədə məlumat verilir", - deyə əlavə olunub.

Xidmətdən o da bildirildi ki, müvafiq dəyişikliyin tətbiqindən sonra Dövlət Xidmətinə qalınlığı 15 mikrona qədər olan polietilen torbaların, habelə birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qabların sahibkarlar tərəfindən ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi ilə bağlı əsaslı müraciətlər daxil olmadığından cərimə tətbiq edilməyib.

"Sahibkarlıq fəaliyyəti haqqında" qanuna əsasən, sahibkar qanunvericiliyə əməl etməklə öz malları üçün qiymətləri sərbəst müəyyənləşdirmək hüququna malikdir: "Nazirlər Kabinetinin qərarı ilə "Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı" təsdiq edilir. Həmin siyahıya daxil olan malların qiymətləri dövlət tərəfindən müəyyən edilir. Digər malların qiymətləri, o cümlədən polietilen torbalar və birdəfəlik istifadə üçün plastik qabların qiymətləri bazar prinsiplərinə uyğun olaraq tələb və təklif əsasında mövcud qanunvericiliyin tələblərinə əməl etməklə təsərrüfat subyektləri tərəfindən sərbəst müəyyən olunur.



**Cəmşid Quliyev,** *ekoloq:*

- Polietilen torbalar yandırılaraq utilizasiya edilir, amma bu proses özü də bir çox halda təhlükəli şəkil alır. Çünki bu zaman ətrafa çoxlu miqdarda karbon qazı və zərərli qazlar yayılır ki, onun tüstüsü belə təbiətdə yüz illərlə qalmağı bacaran zərrəciklərdən ibarətdir.

### Polietilen torbalar fauna və flora sisteminə ciddi ziyan vurur

Polietilen torbaların ətraf mühitə ciddi zərərlərindən danışan ekoloq Cəmşid Quliyev bildirdi ki, belə torbalar gec parçalanmasına görə daha təhlükəlidirlər. Polietilenin parçalanması yüz illər, bəzən 2 min ilə qədər vaxt tələb edir. "Bu müddətdə polietilen torbalar torpağı, suyu təhlükəli şəkildə çirkləndirir, fauna və floraya mənfi təsir göstərir. Sellofan torbaların parçalanarkən yaratdığı əsas təhlükə onların mikroplastiklərə çevrilməsidir. Mikroplastiklər torpağın məhsuldarlığını aşağı salır, su mənbələrini çirkləndirir, həmçinin suda və quruda yaşayan canlılar üçün ciddi təhlükəyə çevrilir. Dənizdə, quruda yaşayan heyvanlar çox vaxt polietilen torbaları qida bilib yeyirlər ki, bu da onların həyatı bahasına başa gəlir. Hətta ev heyvanlarının polietilen torbalarla qidalanması nəticəsində ölməsi artıq adi hal alıb. Bəzi hallarda zəhərləndikləri deyilir, amma nədən zəhərləndiklərini müəyyənləşdirə bilmirlər. Bütün bunlar polietilen torbaların, ümumiyyətlə, plastik tullantıların ətraf mühitdə yaratdığı fəsadlarla əlaqədardır", - deyə C.Quliyev əlavə etdi.

Onun sözlərinə görə, polietilen torbalar yandırılaraq utilizasiya edilir, amma bu proses özü də bir çox halda təhlükəli şəkil alır. Çünki bu zaman ətrafa çoxlu miqdarda karbon qazı və zərərli qazlar yayılır ki, onun tüstüsü belə təbiətdə yüz illərlə qalmağı bacaran zərrəciklərdən ibarətdir. Bu zərrəciklər ətraf mühitdə uzun müddət qalaraq təbiəti çirkləndirməyə davam edirlər. Həmçinin karbon qazı iqlim dəyişiklikləri prosesinə daha da təkan verir.

Ekoloq qeyd etdi ki, polietilen torbalar təbiətdə yayılan əleyhqaz sistemi balansını da pozur: "Bu da onların təbiətə vurduğu əsas zərbələrdən biridir. Bitki və heyvan populyasiyalarına mənfi təsir göstərir. Digər tərəfdən polietilen torbaların təkrar emalı bahalı və çətin prosesdir. Ona görə də bunlar təkrar emaldan keçirilmədən atılır. Polietilen torbalardan istifadə zərurəti onların verdiyi zərərləri göz qabağına alarkən aydın olur ki, bu o qədər də faydalı çıxış yolu deyil. Ona görə alternativ yollar axtarılmalıdır. Əslində, alternativlər var, sadəcə insanlar daha rahat, ucuz başa gələn üsullara meyillidirlər. Amma bu ucuz başa gəlmə sadəcə olaraq məhsulun istehsal xərcləri ilə bağlıdır. Zərərləri göz qarşısına alanda bunun cəmiyyətə və təbiətə necə baha başa gəldiyini təsəvvür etmək, hətta hesablamaq da olar".

### Xəstəlik törədir, ətraf mühiti çirkləndirir

Ümumilikdə polietilen torbalardan istifadə ətraf mühiti çirkləndirməklə yanaşı, insan orqanizminə də mənfi təsir göstərir. Bununla yanaşı, polietilen paketlər ümumi tullantıların təxminən 10 faizindən çoxunu təşkil etməklə ekologiyaya zərər vurur.

Beləliklə, sellofanların hərtərəfli zərərlərini nəzərə alaraq istifadəsinin minimuma endirilməsi, bioparçalanan çantalara üstünlük verilməsi sağlamlığımızı qorumaqla yanaşı, hədsiz tullantı yaranmasının qarşısını almaqla təbiəti də çirklənmədən qoruyacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İşığın təsiri ilə sümüyü bərpa edən material

**Cənubi Koreyanın Pohanq Elm və Texnologiya Universitetinin alimləri sümük zədələrinin müalicəsində inqilabi texnologiya kimi dəyərləndiriləcək yeni material hazırlayıblar. Material işığın təsirinə məruz qaldıqda sümüyü sağaltmaq potensialına malikdir.**



Sümük zədələri, travma və ya infeksiyalar nəticəsində yaranan böyük boşluqların bərpası ənənəvi olaraq xəstənin bədənindən götürülmüş sümük toxumasının istifadə edilməsi ilə həyata keçirilir. Lakin bu prosedur çətin və ağrılıdır. Hazırda alternativ olaraq sümüyə bənzər məsaməli materialların istifadəsi geniş yayılıb. Bu materiallar sümük toxumasının regenerasiyasını stimullaşdırsa da, istifadə edilən yapışdırıcıların effektivliyi bəzən məhdud olur. Alimlər bu problemi həll etmək üçün alginat turşusu əsaslı gel hazırlayıblar. "Biomaterials" jurnalında dərc olunan araşdırmaya görə, bu gel sümüyün zədələnmiş hissəsinə inyeksiya edilir və işıq altında bərk materiala çevrilir. İşığın təsiri ilə polimer zəncirlər bir-birinə bağlanaraq həm möhkəm, həm də məsaməli struktur əmələ gətirir. Bu struktur yaxınlıqdakı sümük toxuması ilə qarşılıqlı təsirə girərək sağalmanı təmin edir.

Hazırlanan materialın ən diqqətəlayiq xüsusiyyətlərindən biri sümük hüceyrələrinin toplanmasını və çoxalmasını sürətləndirməsidir. Yəni zaman keçdikcə gel yerini əsl sümük toxumasına verir. Siçanlar üzərində aparılan təcrübələr materialın effektivliyini təsdiqləyib, lakin insan üzərində sınaqların başlanma tarixi hələlik məlum deyil. Tədqiqatın nəticələri sümük regenerasiyası sahəsində mühüm irəliləyişin təməlini qoyur və tibbi müalicə texnologiyalarında yeni perspektivlər yaradır.




# "Samsung"dan üçqatlı smartfon

**"Samsung" qatlanan smartfon bazarında liderliyini qorumaq üçün innovativ məhsullar hazırlamağa davam edir. Şirkətin son layihəsi üç dəfə qatlana bilən smartfondur. Cihazın şirkətin smartfon bazarındakı iddiasını daha da gücləndirəcəyi gözlənilir.**



Üçekranlı smartfonun ekran ölçüsü 12,4 düym olacaq. Bu da onun həm telefon, həm də planşet kimi istifadəsini mümkün edəcək. Cihazın məhdud sayda, cəmi 300 min ədəd istehsalı nəzərdə tutulub. "Samsung"un innovativ smartfonu 2025-ci ilin ikinci yarısında təqdim olunacaq.

Şirkət innovativ smartfonu təqdim edənə qədər önümüzdəki günlərdə digər yeni məhsullarını nümayiş etdirəcək. Belə ki, yanvarın 22-də "Samsung" şirkətinin "Galaxy Unpacked" tədbiri keçiriləcək. Tədbirdə "Galaxy S" smartfonlarının növbəti seriyası və yeni süni intellekt imkanları təqdim olunacaq.

Bu dəfə eyni anda üç deyil, dörd modelin nümayiş etdiriləcəyi təxmin edilir. Söhbət "Galaxy S25", "Galaxy S25+", "Galaxy S25 Ultra" və "Galaxy S25 Slim"dən gedir. Əgər əvvəllər "Galaxy S" seriyasına böyük və yüksəksəviyyəli versiyalar daxil idisə, indi onları "iPhone 17 Air" ilə rəqabət aparacaq nazik versiya tamamlayacaq. Yeni modellər sələflərindən nəzərəçarpacaq dərəcədə fərqlənəcək.

Tədbir "Samsung"un internet saytında və "Yutub"da yayımlanacaq.

# Ekranı şaquli uzanan ilk noutbuk

**"Lenovo" dünyanın ilk şaquli uzanan noutbukunu təqdim edib. "ThinkBook Plus Gen 6 Rollable" adlı seriya "CES 2025" sərgisində nümayiş olunub.**



Noutbuk qatlanmış vəziyyətdə 14 düymlük ekrana malikdir. Onu yuxarıya doğru 16.7 düymə qədər uzatmaq mümkündür. Böyütmə xüsusi düymənin basılması və ya jest vasitəsilə həyata keçirilir.

Noutbukun korpusunun qalınlığı 19,9 millimetr, çəkisi isə 1,7 kiloqramdır. Mexanizm cihazın minimum 30 min qapaq açılıb-bağlanmasına və 20 min ekran böyüməsinə hesablanıb. "ThinkBook Plus Gen 6 Rollable" 120 Hz yeniləmə tezliyi və 400 nit maksimal parlaqlığa malik OLED ekranla təchiz olunub. Noutbukun məhsuldarlığı, yüksək performans və enerji səmərəliliyi yeni "Intel Core Ultra" prosessorları ilə təmin edilir.

"Lenovo ThinkBook Plus Gen 6 Rollable" bu ilin birinci rübündə satışa çıxarılacaq.

# Dünyanın ən böyük elektromobil istehsalçısı

**Çinin "BYD" şirkəti 2024-cü ildə ümumilikdə 1 milyon 777 min 965 elektromobil istehsal edib. Bununla da o, "Dünyanın ən böyük elektromobil istehsalçısı" ünvanını "Tesla"dan alıb. Məlumat üçün bildirək ki, 2024-cü ildə "Tesla" 1 milyon 773 min 443 elektromobil istehsal etmişdir. Yəni şirkətlər arasında fərq sadəcə 4522 elektromobil olub.**



2023-cü ildə "Tesla" 1,85 milyon ədəd elektromobil istehsal etdiyi halda "BYD" cəmi 1,6 milyon ədəd elektromobil istehsal etmişdi. Ötən il bu iki şirkət üçün fərqli keçib. Belə ki, 2024-cü ilin ilk iki rübündə "Tesla"nın satışları azalıb. Lakin ilin ikinci yarısında şirkət əvvəlki satış tempinə qayıda bilib. "BYD" isə öz növbəsində keçən il istehsal və satış həcmini 12 faiz genişləndirib.

Qeyd etmək lazımdır ki, elektromobillər "BYD" biznesinin yalnız bir hissəsidir. Şirkət hibrid avtomobillər və avtobuslar da istehsal edir. Məlumata əsasən, keçən il "BYD"nin nəqliyyat vasitələrinin satışı 41 faiz artıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Atmosferi ən çox çirkləndirən sosial şəbəkə

Serverlər elektrik enerjisi vasitəsilə çalışırlar. Onlardan nə qədər çox istifadə edilirsə, bir o qədər çox elektrik enerjisi tələb edilir. Elektrik enerjisinin istehsalı prosesi isə heç də ekoloji təmiz proses deyil. Buna görə də hər bir internet istifadəçisi internetdən istifadə nəticəsində karbon izi qoyur. Karbon izi dedikdə bütün parnik qazı tullantıları nəzərdə tutulur.

"Greenly" şirkətinin araşdırması nəticəsində məlum olub ki, "TikTok" istifadəçiləri atmosferi digərlərindən daha çox çirkləndirirlər. Statistikaya əsasən, "TikTok" üçün 2023-cü ildə ABŞ və Böyük Britaniya regionları üzrə bu göstərici 7,6 milyon ton olub. Bu, "X" və "Snapchat"ın həmin regionlardakı karbon izi göstəricilərindən daha yüksəkdir. "İnstaqram"ın istifadəçi kütləsinin 2 milyarda yaxın olmasına baxmayaraq, "TikTok"un karbon izi göstəricisi onun göstəricisindən də yüksəkdir. Təqdim edilmiş statistikada "TikTok"un bütün dünya üzrə parnik qazı tullantılarının miqdarı açıqlanmasa da, "The Guardian"ın hesablamalarına əsasən, söhbət 50 milyon ton parnik qazı tullantısından gedir.

Müqayisə üçün qeyd etmək lazımdır ki, bütün Yunanıstanın parnik qazı tullantısı göstəricisi 51,67 milyon tondur. "TikTok" istifadəçilərinin daha böyük miqdarda karbon izi qoymalarının əsas səbəbi onların bu platformada çox zaman keçirmələridir. Məsələn, orta statistik "İnstaqram" istifadəçisi gün ərzində ümumilikdə bu sosial şəbəkədə cəmi 30,6 dəqiqə olur. Orta statistik "TikTok" istifadəçisində isə bu göstərici 45,5 dəqiqədir. Tədqiqatçılar bunu "TikTok" alqoritmləri ilə əlaqələndirirlər. Belə ki, onlar istifadəçilərdə bu sosial şəbəkədən asılılığa səbəb olurlar. Bundan əlavə, məlum olub ki, "TikTok"dan istifadə nəticəsində atmosferə 48,49 kq karbon qazı buraxılır. "Yutub" üçün bu göstərici 40,17 kq, "İnstaqram" istifadəçisi üçün isə 32,52 kq təşkil edir.

# İşıqlı günlərin yollarında

## Bazar günü etüdü



*Könüllərə fərəh gətirən işıq, qəlblərə sevinc ələyən nur dünya yaranandan daim ahənrüba kimi insanları özünə çəkib. Bəşər övladları həmişə ürəkləri sıxan, onları zülmətdə saxlayan qaranlıqlardan işığa, aydınlığa çıxmağa can atıblar. Bu yolda əzablara, əziyyətlərə qatlaşıblar. Qaranlıqdan işıqlığa asanlıqla çıxmayıblar. İstəklərinə çatmaq üçün ucsuz-bucaqsız çöllərdən keçiblər, dağları, dərələri aşıblar. Çaylardan, bulaqlardan su içiblər. İşığa doğru uzun-uzadı yol gəliblər, qaranlıq dünyaları dolaşıblar. Məqsədlərinə çatmaq üçün yorulmadan, dayanmadan çalışıblar.*

*Bütün qaranlıq yollar sonda insanları işığa qovuşdurub, nura qərq edib. İşığı görən insanların coşub-daşan sevincindən, fərəhindən qaranlıq dünyalar aydınlığa çıxıb. Bu işıqdan Yer üzündə həyat canlanıb. Daim vahimə yaradan, qorxu hissləri aşılayan qaranlıqlar lənətlənib, zülmətlər pislənib. Lənətlənən, pislənən qaranlıqları heç kim sevmir, ona tərəf kimsə getmir.*

*İnsanlar daim ürəkləri sıxan, qəlblərdə qorxu oyadan qaranlıqdan, zülmətdən xilas olmaq üçün yollar axtarıblar. Böyük çətinliklə zülmətlərin bağrını yarıb işığa doğru cığır açıblar. Uzun axtarışlardan sonra istəklərinə qovuşublar, arzularına çatıblar. Hədəflərinə çatanda isə rahatlaşıblar, arxayınlaşıblar. Çünki məqsədlərinə yetişiblər, qaranlıqlardan işığa doğru gedən yolları tapıblar.*

*İşığa çıxmaq, nura qovuşmaq yeni həyatın doğuluşudur, yeni günün başlanğıcıdır. Sabaha, gələcəyə atılan kövrək addımlardır. Hər şey mayasını, qayəsini işıqdan götürür, nurdan alır. Bundan sonra yeni həyat başlayır, ömrün yeni illəri yaşanır. Ürəklərdə coşub-daşan arzular, istəklər əbədi məşəl kimi şölələnir. Dünya işıqla dolub nura boyanır.*

*Həmişə uzaq yola çıxanda əzizlərimiz, doğmalarımız arzularını dilə gətirirlər, bizə ürəkdən gələn ən xoş sözlər söyləyirlər. Hər şeydən əvvəl işləriniz avand, yollarınız işıqlı olsun deyirlər. Bu xoş anlarda sanki onlar sevincdən don geyinirlər.*

*İşığa qovuşandan sonra əhvali-ruhiyyəmiz yüksəlir, bundan çox sevinirik. Elə sevinə-sevinə də deyirik ki, işıqlarımız getdikcə gur yansın, qəlbimizdə nurlu fikirlər oyansın. Qoy narahatlıqlar içində çırpınan dünyamız nura boyansın, başımızın üzərində ədalət məşəli yansın. Yer üzünün bütün insanları özlərini xoşbəxt sansın. Ana təbiət günəşdən güc alsın, bütün qaranlıqlar, zülmətlər işıqlansın. İnsanlar gur işıqdan ruhlansın, həyat eşqləri artsın. Pisliklər unudulsun, yalnız yaxşılıqlar yadda qalsın. Qoy silahlar deyil, ağıldan, zəkadan güc alan sülh zəfər çalsın.*

*Həmişə qaranlıqlardan işığa çıxaq, çətinlikləri arxada qoyaq, insanlara zülmətləri yaşadanların gözlərini tutaq. Yubanmadan, ləngimədən işıqlı məqsədlərə, nurlu amallara doğru addımlayaq. Ətrafımızdakı insanlara yalnız xoş sözlər deyək. Belə olarsa, həyatımızda uğurlar qazanarıq, reallaşmış arzularımızın sevincini yaşayarıq. Qarşımızda daim zəfər işıqları yanar, bundan dünya nura boyanar. Yer üzünün insanlarını məhvə sürükləyən müharibələr, qırğınlar dayanar. İnsanlar səhərlər silahların səsinə deyil, quşların cəh-cəhinə, şirin nəğməsinə yuxudan oyanar.*

*Artıq neçə gündür yeni ilə qədəm qoymuşuq. Yeni günlər yeni ilin qapısını yenicə açıb. Köhnə il bizimlə vidalaşıb. Yeni ilin yeni yollarına yeni niyyətlə, yeni amalla çıxmışıq. Ömür yollarımıza yeni arzulardan, yeni istəklərdən qanad taxmışıq. Gəlin yeni ilin yeni günlərində hamımız bir-birimizə işləriniz avand, yollarınız açıq və işıqlı olsun deyək. Həmişə uğurlu işlərimizi, xeyirxah əməllərimizi dəyərli, qiymətli sözlərlə ifadə edək.*

*Yeni ilin ilk günlərini yaşayırıq. Yaşadığımız bu soyuq qış günlərində ürəyimizdən gələn isti, ılıq sözlər sevinc içində qulağımıza tez-tez bu sözləri pıçıldayır: "İlimiz uğurlu, yollarımız işıqlı, çöhrəmiz nurlu, baxışlarımız qürurlu, qamətimiz dağlar kimi vüqarlı olsun! Qəlbimizdən ürəyimizə nur ələnsin, gur tökülsün, çətinliklərimiz asanlıqla çözülsün, uğurlarımız ard-arda düzülsün. Üzümüz gülsün, gözlərdən çöhrələrə tükənməyəcək sevinc süzülsün".*

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Mənim sualım var

*Mənim iki sualım var. Birinci sualım belədir: Dörd övladımız var. Sonbeşiyimiz 5 aylıqdır. Həyat yoldaşım uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə cəmi 3 ay oldu, sonra işə çıxmağa qərar verdi. Hazırda işləyir. Bilmək istəyirəm ki, ehtiyac yaranarsa, yenidən sosial məzuniyyətə çıxa bilər?*

*İkinci sualım: Həyat yoldaşımla müddətli əmək müqaviləsi bağlanılıb və müddəti 2025-ci il may ayının 7-də bitəcək. Əgər müdiriyyət müddətli əmək müqaviləsinin müddətinin bitməsinə görə onun əmək müqaviləsinə xitam verərsə, bu, qanunazidd sayıla bilər? Eşitdiyimə görə, üç yaşınadək uşağı olan qadınların əmək müqaviləsinin ləğv olunması qadağandır.*

***E.HACIYEV,***
***Göyçay rayonu***

Birinci sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 127-ci maddəsinin 1-ci hissəsinə əsasən, uşağa bilavasitə qulluq edən valideynlərdən biri uşağın 3 yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdir. Eyni zamanda adıçəkilən maddənin 2-ci hissəsinə uyğun olaraq, uşağa qulluq edən işçi yazılı ərizəsi əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam, ya da hissə-hissə istifadə edə bilər. Maddənin məzmunundan göründüyü kimi, uşağın anadan olmasından 3 yaşı tamam olan günədək və həmin dövr üzrə müəyyən edilən 3 illik müddəti aşmamaq şərtilə işçi həmin dövrün istənilən kəsiyində hissə-hissə qismən ödənişli sosial məzuniyyət hüququndan yararlana bilər.

İkinci sualınıza gəldikdə: Azərbaycan Respublikası Əmək Məcəlləsinin 79-cu maddəsində əmək müqaviləsinin ləğv olunması qadağan edilən işçilərin siyahısında üç yaşınadək uşağı olan qadınlar və üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər göstərilsə də, məcəllənin həmin maddəsinin 2-ci hissəsinə əsasən, bu imtiyaz himayəsində azyaşlı uşağı olmasına baxmayaraq, müddətli əmək müqaviləsi bağlamış işçilərə şamil edilmir. Yəni hətta himayəsində azyaşlı (3 yaşınadək) uşağı olsa da, əgər şəxs müddətli əmək müqaviləsi əsasında əmək münasibətlərindədirsə, işəgötürən Əmək Məcəlləsinin 73-cü maddəsinə uyğun olaraq, işçi ilə arasında olan əmək müqaviləsinin müddətini uzatmamaqla onu ləğv edə bilər.

*III qrup Qarabağ əliliyəm. 20 il neft şirkətində məsul vəzifədə işləmişəm. İxtisarla əlaqədar işdən çıxarılmışam. 1 ilə yaxındır ki, işsizəm. İşlədiyim müddətdə 10 min manat kredit götürmüşəm. İndi işsiz olduğuma görə krediti ödəyə bilmirəm, üstəlik, hər ay da faiz gəlir. Sosial sığorta hesabımda 96 min manat pul var. Mən həmin kapitaldan necə istifadə edə bilərəm?*

***Fikrət QULİYEV,***
***Bakı şəhəri***

Sualınıza cavab olaraq bildiririk ki, "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, şəxsin əmək fəaliyyəti çərçivəsində onun fərdi şəxsi hesabına sığortaedənin (işəgötürənin) və sığortaolunanın (işçinin) vəsaiti hesabına sığorta haqları ödənilir. Adıçəkilən qanunla həmin vəsaitdən hansı hallarda istifadə oluna bilməsi dəqiq müəyyən edilmişdir. Qanunun 4-cü maddəsinə görə, şəxsin sosial sığorta hesabında toplanmış vəsaitdən yalnız şəxsin pensiya yaşına çatması, əlilliyin müəyyən edilməsi, ailə başçısını itirməsi, əmək qabiliyyətinin müvəqqəti itirilməsi (qanunvericiliklə müəyyən olunmuş dövr üçün), hamiləlik və doğum, uşağın anadan olması, uşağa qulluq, ölüm, sanatoriya-kurort müalicəsi hallarında istifadə oluna bilər. Gördüyünüz kimi, hər hansı kredit müəssisəsinə olan borcun qarşılanması məqsədilə həmin vəsaitdən istifadə edilməsi halı "Sosial sığorta haqqında" qanunda təsbit olunmadığından kreditinizin ödənilməsi məqsədilə sosial sığorta hesabınızdakı vəsaitdən istifadə edə bilməzsiniz.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Uğurla reallaşan milli ideya
Bu il də Qarabağ və Şərqi Zəngəzura qayıdış prioritet olacaq

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Fransa yeni siyasi təlatüm astanasında

## Ölkə əhalisinin 61 faizi E.Makronun istefasını istəyir

**2025-ci ilin ilk sorğuları göstərir ki, fransızları üç məsələ narahat edir: Baş nazir Fransua Bayrunun əvvəlki Nazirlər Kabineti kimi zəif olan yeni hökumətinin gələcəyi, üç hissəyə bölünmüş parlamentdə mövcud vəziyyət və Milli Assambleyanın yenidən buraxılması ehtimalı, habelə təkcə siyasi rəqiblərinin deyil, həm də ölkə əhalisinin əksəriyyətinin tələbi ilə Prezident Emmanuel Makronun mümkün istefası.**




Prezident E.Makronun ənənəvi Yeni il nitqi keçən illə müqayisədə daha az inamlı səslənib. Bir neçə əsas telekanalda yayımlanmasına baxmayaraq, o, cəmi 9,7 milyon tamaşaçı cəlb edib.

Əvvəlki illərdən fərqli olaraq bu dəfə Makron təkcə siyasi vəziyyətin qeyri-sabitliyini deyil, həm də buna görə birbaşa məsuliyyətini qeyd edib. O etiraf edib ki, parlamentin buraxılması həll yollarından daha çox assambleyaya fikir ayrılığı gətirib.

Prezidentin parlamentdəki parçalanmanın həllinə kömək edəcəyinə ümid etdiyi tədbirlər sakitlikdən daha çox qeyri-sabitlik yaradıb. Bununla belə Makron öz məsuliyyətini bəyan etməklə kifayətlənməyib. Həmvətənlərini təşvişə salaraq tezliklə yenidən ölkəyə müraciət edəcəyinə söz verib.

"Le Figaro" qəzetinin keçirdiyi "Odoxa-Backbone" sorğusuna görə, fransızların 86 faizi dekabrda təyin olunan Baş nazir Fransua Bayrunun istefasının qaçılmaz olduğunu düşünür. Onun hökuməti təyin olunduqdan üç ay sonra etimadsızlıq səsverməsi ilə üzləşən sabiq baş nazir Mişel Barnyenin əvvəlki kabinetinin taleyini təkrarlamaq riskini daşıyır. Parlamentdə davamlı sabotajla üzləşən Prezident onu buraxmaq barədə düşünə bilər. Jan-Lyuk Melanşonun "Yenilməyən Fransa"sı məhz bunu gözləyir, ifrat sağçı "Milli Birliy"in rəhbəri Marin Le Pen isə ötən ayın ortalarında partiyasının növbədənkənar prezident seçkilərinə hazırlaşdığını elan edib. O, "demokratik həll" tələb edən hökumət böhranının "xoşbəxt nəticəsi"nə ümid etdiyini gizlətmir.

Belə bir ehtimal var ki, Prezident üçün aktual məsələləri parlamentdən keçirmək çox çətinləşdiyi üçün o, bunları referenduma çıxarmaq niyyətindədir. 2017-ci ildə hakimiyyətə gələndən bəri E.Makron belə bir konstitusiya alətindən istifadəni daim qeyd etsə də, hələ ki, bu yöndə addımlar atmayıb. Ola bilsin ki, indiki vəziyyətdə bu, Prezidentin loyallığına əmin olmadığı parlamenti kənarda qoymaqla, xalqla birbaşa əlaqə yaratmaq cəhdidir. Lakin o da nəzərə alinmalıdır ki, məsələn, referendumla büdcənin qəbulu mümkün deyil.

Fransızları belə mürəkkəb problemlərin həllinə cəlb etmək üçün ilk növbədə parlamentin hər iki palatasından referendumun mətni, vaxtı və təyinatı ilə bağlı razılıq əldə etmək lazımdır. Aydındır ki, bu, nə Prezidentin, nə də hökumətin ümumi dil tapacağına əmin olmadığı Milli Assambleya və Senatın qanun layihəsinə yeni cəlb olunması deməkdir.

Üstəlik, Fransada keçirilən son iki referendumun tarixi hakimiyyətə bəzi xoşagəlməz dərslər verib. İyirmi il əvvəl, 2005-ci ildə prezident Jak Şirakın dövründə keçirilən referendumda fransızlar Avropa Konstitusiyasını rədd etmişdilər, lakin onların qərarına heç kim qulaq asmamışdı. Sual yaranır: referendum Makronun istəklərinə zidd keçərsə, o, başqa cür hərəkət edəcəkmi? İkinci hal isə 1969-cu ildə Prezident Şarl de Qoll tərəfindən təyin edilmiş və onu istefaya getməyə məcbur etmiş referendumdur. Prezident Makron tez-tez heyranlığını bölüşdüyü Şarl de Qolldan nümunə götürəcəkmi? Üstəlik, son sorğulara görə, fransızların 61 faizi Makronun istefasını istəyir.

Bu ideya Prezidentin əsas opponentləri tərəfindən böyük həvəslə qarşılanıb. Onlar prezidentlik müddətinin başa çatması və ya ölkədə icra hakimiyyətinin onların əlinə keçməsi məsələsini gündəmə gətirdiyi halda hər an belə referendum keçirməyə hazırdırlar. Bunun qarşısını almaq üçün Prezident referendum təyin edərkən düşünməlidir ki, fransızların "hə" və ya "yox" cavabı problemi həll etmək əvəzinə onun istefasına çevrilməsin.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# BİLDİRİŞ

14 fevral 2025-ci il saat 11:00-da Bakı şəhəri Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən, ləğv prosesində olan "Bakı Sığorta" ASC-nin inzibati binasında cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən yığıncağın gündəliyi üzrə materiallarla tanış olmaq üçün LPO "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri Nəsimi rayonu, Azadlıq prospekti, 120 ünvanında yerləşən inzibati binanın 6-cı mərtəbəsində), həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

***LPO "Bakı Sığorta" ASC***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Gədəbəy rayon prokuroru Əli Babayevə atası

**İBRAHİM MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3043
Sifariş 6

Qiyməti 60 qəpik